

# Sevincimiz, kədərimiz, qürurumuz SENTYABR

14

Səs
№ 159 (6600) 3 sentyabr 2022-ci il. Qiymәti 60 qəpik

# Azərbaycanın Avropada və dünyada Liderlik mövqeyi danılmazdır!

3



Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya səfəri bir sıra önəmli hadisələrlə yadda qalması ilə yanaşı, dövlət başçımızın Avropa məkanı üçün əhəmiyyət kəsb edən mühüm bəyanatları və çıxışları beynəlxalq aləmin də diqqətini cəlb etdi.

# Paşinyan, Vardanyan və konqresmenlər - üçü bir bezin qırağı





*Dəyirman öz işindədir, çax-çax baş ağrıdır. Bu misalı nəyə görə xatırlatdığımı yazının bir iki cümləsini oxuyandan sonra biləcəksiniz. Azərbaycan Vətən müharibəsində əldə etdiyi möhtəşəm qələbənin artıq iki ildönümünə hazırlaşır.*



8

## Bir şagirdin məktəb ləvazimatları NEÇƏYƏ BAŞA GƏLİR?



6

## Övladlığa götürmə ilə himayədar ailənin fərqi nələrdir?



13



10

## Kreml separatçıları təbrik edən Zatulinin oyunbazlıqlarına son qoyacaqmı?

## "Sülhməramlılar Qarabağda Azərbaycanın ərazi bütövlüyünün bərpasına məsul deyillər"

"Rusiya sülhməramlılarının missiyası 2020-ci ilin 10 noyabr üçtərəfli Moskva razılaşmasının 5-ci bəndində müəyyən edilib.



11



# Mişi Batşuayi "Fənərbaxça"da

*"Fənərbaxça" heyətinə daha bir futbolçu cəlb edib. İstanbul klubunun yaydığı məlumatda deyilir ki, "Çelsi"nin hücumçusu Mişi Batşuayi heyətə cəlb edilib.*

16



## Uşaqlar arasında yayılan virusun artmasına SƏBƏB NƏDİR?

16

*"Uşaqlar arasında geniş yayılan bu virus həm də böyüklər arasında da yayılıb. Uşaqlar arasında yayılan virus mövsümi xarakter daşıyır".*

## Müxalifət Əli Kərimlinin acınacaqlı gününə düşüb



13

# Azərbaycanın Avropada və dünyada Liderlik mövqeyi danılmazdır!

*Prezident İlham Əliyevin İtaliyaya səfəri çərçivəsində "Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu" mövzusunda keçirilən Forumdakı çıxışı özündə bir sıra mühüm məqamları ehtiva etməkdədir*







***Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya səfəri bir sıra önəmli hadisələrlə yadda qalması ilə yanaşı, dövlət başçımızın Avropa məkanı üçün əhəmiyyət kəsb edən mühüm bəyanatları və çıxışları beynəlxalq aləmin də diqqətini cəlb etdi.***



Əbəs deyil ki, ölkə rəhbərimiz İtaliyada keçirilən 48-ci beynəlxalq Çernobbio Forumunda ”Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu” mövzusunda çıxışı zamanı bir sıra sahələri əks etdirən mühüm kontekstlərə toxunmaqla ölkəmizin Avropadakı və dünyadakı rolunun nə qədər mühümlük təşkil etdiyini forum iştirakçılarına çatdırdı.

Lakin forumun keçirildiyi məkanın dost İtaliya Respublikası olduğunu da nəzərə alsaq bu zaman ölkələrimiz arasındakı bağlılığın nə qədər möhkəm və sarsılmaz dayaqlara söykəndiyini əminliklə qeyd edə bilərik.

### Prezident İlham Əliyev: “Biz görüşlərimiz zamanı təkcə enerji məsələləri, iqtisadi inkişafla bağlı deyil, həmçinin təhsil məsələlərinə dair müzakirələr apardıq”

Belə ki, Prezident İlham Əliyevin İtaliya Prezidenti Sercio Mattarellanın dörd il əvvəl etdiyi rəsmi səfəri xatırlatması, eləcə də ölkələrimiz arasında aktiv siyasi dialoqun olduğunu vurğulaması qarşıdakı illərdə daha münbit və daha sıx əməkdaşlıqların reallaşdırılacağı anonsunu vermiş oldu. ”Budəfəki görüşlərimiz zamanı biz ikitərəfli gündəliyimizə yeni və çox mühüm məsələlər əlavə etdik. Bunlardan biri də təhsil sahəsidir. Biz görüşlərimiz zamanı təkcə enerji məsələləri, iqtisadi inkişafla bağlı deyil, həmçinin təhsil məsələlərinə dair müzakirələr apardıq”, deyə Prezident İlham Əliyev qeyd etdi və əməkdaşlıq sahələrinin genişləndiyini vurğuladı.

### Azərbaycan Prezidenti: ”Tezliklə biz Avropa bazarına və əsasən də İtaliyaya neft ixracat edən ölkəyə çevrildik”

Daha bir əhəmiyyətli məqam Azərbaycanın Avropanın enerji təminatçısı və təhlükəsizliyi rolunda yer alması reallığıdır. Bu baxımdan, hələ illər öncə Azərbaycanın öz müstəqilliyini bərpa etdikdən sonrakı çətin dövrlərdə Avropa bazarlarına çıxmağa nail oldu. Prezident İlham Əliyev bununla bağlı münasibətində onu da xatırladıb ki, ilk Avropa bazarı da məhz İtaliya olub.

”Azərbaycanın enerji təhlükəsizliyi ilə bağlı strategiyası bir neçə mərhələyə bölünüb. Birinci mərhələdə müstəqilliyimizin bərpasından sonrakı üç il ərzində, yəni, 1994-cü ildə Azərbaycan Xəzər dənizində əməkdaşlıq etmək üçün xarici dövlətlərin aparıcı enerji şirkətlərini dəvət edən ilk dövlət idi. Tezliklə biz Avropa bazarına və əsasən də İtaliyaya neft ixracat edən ölkəyə çevrildik”, deyə xatırladan dövlətimizin başçısı onu da qeyd edib ki, Azərbaycan artıq uzun illər boyu İtaliyanın ən böyük neft təchizatçısı kimi tanınmaqdadır.

### Ölkə başçımız: ”Bu il biz qazın həcmini daha da artırmağı və İtaliya bazarına 10 milyard kubmetrə yaxın qaz ixrac etməyi planlaşdırırıq”

İlham Əliyev əlavə edib ki, həmin vaxtlar açıq dənizə çıxışı olmayan ölkə kimi Azərbaycanın ixrac kəmərlərinə ehtiyacı var idi: ”Biz strateji neft boru kəmərlərini Aralıq dənizi limanında yerləşən Türkiyəyə və Gürcüstanın Qara dəniz limanına çəkdik, dünya bazarına enerji tədarükünü şaxələndirməklə Avropanın enerji xəritəsini dəyişdirməyi bacardıq”.

Artıq Cənub Qaz Dəhlizinin əsas və son mərhələsi olan TAP layihəsinin istifadəyə verilməsindən bu günədək, yəni, il yarım keçdikdən sonra Azərbaycanın Türkiyə və Gürcüstanla yanaşı, üç Avropa ölkəsinin təbii qaz ixracatçısına çevrildiyini xatırladan dövlətimizin başçısı bildirib ki, ötən müddət ərzində Avropaya 13,5 milyard kubmetr qaz ixrac olunub, bunun da 11,7 milyard kubmetri İtaliyanın payına düşür. ”Bu il biz qazın həcmini daha da artırmağı və İtaliya bazarına 10 milyard kubmetrə yaxın qaz ixrac etməyi planlaşdırırıq”, deyə Azərbaycan Prezidenti qeyd edib.

### Azərbaycanın isbat edilmiş qaz ehtiyatı 2,6 trilyon kubmetrdir!

Beləliklə, Azərbaycanın Avropanın aparıcı enerji təminatçısı olması artıq özünü kifayət qədər sübuta yetirib və bu amil həm də belə nəticəyə gəlməyə zəmin yaradır ki, məhz Avropa bazarından dünya bazarına çıxmaq imkanlarına malik olan ölkəmiz qarşıdakı illərdə həmin planlarını realizə etmək gücündə və qüdrətindədir. O da əbəs deyil ki, forumdakı çıxışı zamanı Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın enerji strategiyasının ikinci mərhələsi nəhəng qaz yataqlarının işlənməsi oldu və artıq Azərbaycanın isbat edilmiş qaz ehtiyatı 2,6 trilyon kubmetrdir!

Bütün bunlar isə daha bir reallığı əks etdirir ki, Azərbaycan enerjinin təminatında və onun təhlükəsizliyinin qorunub-saxlanılmasında paralel olaraq etibarlılıq prinsipini də nümayiş etdirir. Prezident İlham Əliyev Azərbaycanın artıq on ildən çoxdur ki, qonşu dövlətlər üçün etibarlı qaz ixracatçısına çevrildiyini vurğulaması ilə həmin faktoru bir daha isbatlayıb.

Beləliklə, ölkə rəhbərimiz İtaliyada keçirilən 48-ci beynəlxalq Çernobbio Forumunda ”Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu” mövzusundakı çıxışı Avropa və dünya üçün daha bir yenilik, əməkdaşlıq və tərəfdaşlıq çağırışları kimi tarixə yazıldı. Söz yox ki, bütün bunların təməlində dayanan ən mühüm faktor məhz İlham Əliyev qətiyyəti, praqmatikliyi, mütərəqqiliyi və uzaqgörənliyidir. Məhz bu faktorlar ölkəmizin dünyadakı rolunu sürətlə artırır, lider ölkələr sırasındakı yerini möhkəmləndirir.

***Rövşən RƏSULOV***

***Dünyada ölkələrin əsas inkişaf göstəricisi iqtisadiyyatın sənayeləşməsi ilə ölçülür. Sənayesi inkişaf edən ölkələr bu imkandan istifadə edərək bol və keyfiyyətli məhsul istehsalına nail olurlar. Məsələn, ərazisi və təbii sərvətləri az olan Yaponiya, Almaniya, Böyük Britaniya Rusiyadan bir neçə dəfə artıq məhsul istehsal edirlər. Bunun da başlıca səbəbi sənayenin inkişafı, elmin və texnologiyaların son nailiyyətlərindən istehsal proseslərində istifadə edilməsidir.***

# Aqroparkların önəmi nədir?



ARAŞDIRMA

Hazırda hökumət qeyri-neft sektorunun inkişaf bazalarından biri kimi aqrar-sənaye sektoruna daha böyük üstünlük verir. Ölkənin inkişafının əsas sütunlarından biri aqrar sektor hesab olunur. İnnovativ iqtisadiyyatda aqrar sektorun modernləşdirilməsi başlıca prinsiplərdəndir və bu sahədə aqrar texnoparkların (aqropark) yaradılması əsas hədəflərdən hesab olunur.

Dövlət başçısı kənd təsərrüfatında aqroparkların yaradılmasının zəruriliyini vurğulayaraq demişdir: ”Hesab edirəm ki, aqroparkların yaradılması üçün şərait artıq yetişib. Bu məsələlərlə bağlı başqa ölkələrin təcrübəsi də öyrənilə bilər, harada ki bu aqroparklar mövcuddur. Hesab edirəm ki, bu da müasir bir yanaşma və kənd təsərrüfatının inkişafı üçün növbəti bir təkan olacaqdır. Aqroparklarda istehsalçıların, təchizatçıların və tədarükçülərin eyni bir ərazidə fəaliyyət göstərməsi sayəsində müvafiq biznes subyektlərinin həm resurslar, həm də məhsullar bazarına çıxışı asanlaşır, effektiv biznes strategiyası və innovativ texnologiyalar hesabına müasir tələblərə uyğun rəqabətqabiliyyətli ərzaq istehsalı sistemi formalaşır.

Hər kəsə bəllidir ki, kənd təsərrüfatı məhsulları tez xarab olduqlarına görə, realizasiya prosesi sürətli olmalıdır. Əksər hallarda məhsulların fermerlər tərəfindən vaxtında satılması mümkün olmur və bunun nəticəsində yararsız vəziyyətə düşərək zərər gətirir. Bu həm maddi itkiyə səbəb olmasına, həm də bazarda məhsul qıtlığına gətirib çıxarır. Nəticədə daxili istehsal hesabına tələbat ödənilmir, idxal məhsullarına üstünlük verilir. İdxal edilən məhsulların çoxu isə geni dəyişdirilmiş olur.

Millət Vəkili Azər Badamov SİA-ya açıqlamasında bildirib ki, milli iqtisadiyatımızın dayanıqlı inkişafının təmin olunması dövlətimizin qarşısında dayanan əsas məqsədlərdəndir: ”Bu məqsədlə Prezident İlham Əliyev 2 fevral 2021-ci il sərəncamı ilə Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər təsdiq etmişdir. Milli Prioritetlərin əsas məqsədi dayanıqlı milli iqtisadiyyatın və yüksək rifahın təmin edilməsidir. Azərbaycan qısa zaman kəsiyində böyük inkişaf yolu keçmişdir. Ölkədə makroiqtisadi sabitlik təmin olunmuş, həyata keçirdiyi beynəlxalq nəqliyyat layihələri ilə dünyanın ayrılmaz bir hissəsinə çevrilmişdir. Bu gün ölkəmizin qeyri-neft sektorunun iqtisadiyyatda payı günü-gündən artmaqdadır. İqtisadiyyatın dayanıqlı inkişafınd a əsas rol da özəl sektorun üzərində formalaşmalıdır. Milli iqtisadiyyatın dayanıqlı inkişafını özündə əks etdirə Milli Prioritetlər əsasən 5 istiqaməti özündə əks etdirir”.

**1.** Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat,

**2.** Dinamik, inkluziv və sosial ədalətə əsaslanan cəmiyyət

**3.** Rəqabətli insan kapitalı və müasir innovasiyala

**4.** İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış

**5.** Təmiz ətraf mühüt və yaşıl artım ölkəsi

Dayanıqlı iqtisadi artıma nail olunması üçün davamlı və yüksək iqtisadi artıma nail olmalı, daxili və xarici təsirlərə dayanıqlılıq təmin olunmalıdır. Milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın tərkib hissəsi olduğundan, xarici mühütdən təsirlənə bilir. Bu səbəbdən uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığı gücləndirilməli, makroiqtisadi sabitlik daha da möhkəmləndirilməlidir.

Bu gün qlobal iqtisadiyyatın ən çox təsirə məruz qaldığı sahələrdən biri də qlobal ərzaq bazarıdır. Cənab Prezidentin tapşırığı və rəhbərliyi altında bu qlobal çağırışa Azərbaycan bir neçə il əvvəl hazırlaşmağa başlamışdır. Bu, əsasən ölkədə aqrar sektorun inkişafına dövlət dəstəyinin artırılması, iri fermer təsərrüfatları və aqroparklar yaratmaqla rəqbaətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsal edilməsi ilə bağlı olmuşdur. Ölkəmizdə 32 rayonda 240 min hektar ərazidə ümumi lahiyə dəyəri 2.3 milyard manat olan 51 aqropark və iri fermer təsəsrrüfatının formalaşfırlması hədəflənmişdir . Bu aqroparkların və iri fermer təsərrüfatların 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, 2-si isə emal sənayesi üzrə olacaqdır. Artıq 44 aqropark fəaliyyətə başlayıb, digərlərində isə layihələndirmə işləri aparılır. Aqroparklarda 4000 daimi, 5000 mövsümü iş yerləri yaradılmış, gələcəkdə isə daha 5 min iş yerinin yaradılması nəzərdə tutulur. Bu gün qlobal ərzaq böhranı ölkələri narahat etdiyi bir dövürdə Azərbaycan yaratdığı aqroparkalar və iri fermer təsəsrrüfatları hesabına ətlə 90%, quş əti ilə 80%, süd və süd məhsulları ilə 85% özünü təmin etməyə keçə bilmişdir. Hədəf isə ərzaqla təminatımızı 100% idxaldan azad etmək və kənd təsərrüfatı məhsulların ixracını artırmaqdan ibarətdir.

Son dönəmlərdə Ağsuda yaradılan Aqroparkdan danışmağınızı istəyərdik, daha çox hansı sahələrdə sürətli canlanmaya yol açacaq?

Prezident İlham Əliyev 12 avgustda Ağsu rayona səfəri çərçivəsində Ağsu Aqroparkın fəaliyyəti ilə tanış olmuş, tapşırıq və tövsüyyələrini vermişdir. Ağsu Aqroparkı 1843 hektar ərzidə 18 milyon manat investisya qoyulmaqla yaradılmış, bitkiçilik və heyvandırlıq üzrə ixtisaslaşmışdır. Bu aqorpakda 200 nəfər daimi işlə təmin olunmuş, 2200 iribuynuzlu ətlik və südlük qaramal bəslənməklə il ərzində 4 milyon litr süd istehsal olunur. Aqroparkda 800 hektar ərazidə pivot suvarma sistemləri tətbiq etməklə innovativ üsullarla əkin işləri aparılır. Ümumiyyətlə, Aqroparklar və İri fermer təsərrüfatları ölkəmizin ərzaq təhlükəsizliyin təminatında həlledici rol oynayır. Məhz vaxtında bu istiqamətdə atdığımız addımları sayəsində bu gün biz ərzaq təhlükəsiziliyimizi qismən təmin edə bilmişik. Gələcəkdə isə nəzərdə tutulmuş dövlət proqramlarının vaxtında icrası sayəsində ölkəmizin ərzaq təhlükəsizliyi tam şəkildə təmin olunacadır. Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan sosial-iqtisadi siyasət Azərbaycanı daha güclü iqtisadiyyatı olan ölkəyə çevirəcək və insanların yüksək sosial ruifahı təmin olunacaqdır.

İqtisadçı Toğrul Vəliyev isə qeyd edir ki, 90-cı illərdə keçirilən torpaq islahatlardan sonra bizdə kənd təsərüffatda ciddi problemlər yaranmağa başladı. Kənd təsərrüfatının inkişafını gözləmək çətindir, çünki bir müddət keçməlidir ki, bu torpaqdan nəsə qazanasan. Məhsuldar və effektiv kənd təsərrüfatı aparmaq üçün texnika avadanlıqları və texnologiya lazımdır. Bunun xərci çox yüksəkdir.

Kiçik təsərrüfat sahibi belə bir xərcləri qarşılaya bilməz. Dövlət dəstəyi də kifayət qədər səviyyədə deyildir. Bu sahədə təcilli addımlar atılmalıdır ki, effektivliyi artsın və kənd təsərrüfatı müvafiq səviyyəyə qayıtsın. Çünki bunun nəticəsində Azərbaycanın özünü təmin etmə səviyyəsi aşağı düşür və bir sıra sahələr üzrə çətinliklər yaranır. Kiçik təsərrüfatların saxlanılması üçün vahid bir sistem yaradılsın ki, onlar biri ilə əlaqəli şəkildə inkişaf etsinlər. Uzun müddət heç bir seçim edilmirdi, dövlət sadəcə subsidiya siyasətini genişləndirdi və s. 2015-ci ildən sonra ciddi bir böhrandan sonra iki əsas istiqamət seçildi ki, bu istiqamət kiçik təsərrüfatlara aid edilməmişdir. Birincisi dövlətə məxsus olan torpaqların aqroholdinglərə icarəyə verilməsi, ikincisi aqroparkların yaradılması. Birinciyə əsasən dövlət torpağı sadəcə icarəyə verir.

İkincisi aqroparklardır ki, bunlar da özəl və dövlət olmaqla iki yerə ayırmaq olar. Dövlətin tam dəstəyi ilə özəl şirkətlər kənd təsərrüfatı inkişafını həyata keçirir. Aqroparkların əsas məqsədi ilə icarə verilmiş torpaqların əsas fərqi ondan ibarətdir ki, həmçinin aqropark sənaye mərkəzinə çevrilə bilər. Nəticə etibarilə Aqrar sənaye mərkənizə çevrilsə o zaman daha effektiv nəticələr əldə olunacaqdır. Satış, qablaşdırması, emalı eyni yerdən həyata keçiriləcəkdir. Ən əsası satışı da vahid bir yerdən idarə olunmasıdır. Biz görürük ki, aqroparklar iri aqrar şirkətlər dövlətdən dəstəyini almaq istəyirlər. Hətta iqtisadi zonaların inkişaf idarə heyətinin sədrin sözlərinə görə indiyə kimi 51 aqroparkın tikintisi həyata keçirilir, onlardan 44-ü fəaliyyət göstərir. 25-i 184 milyon manat həcmində güzəştli kredit alınıb. Həmçinin onlar bağların salınmasına görə dövlətdən birbaşa subsidiya alırlar və digər məbləğləri də nəzərə alsaq dəstək çoxşaxəli və çox genişdir. Məsələ ondan ibarətdir ki, bunun nəticəsində aqroparklar yaranması nəticəsində elə bil yeni bir insan növü yaradılır. Çünki bir sıra aqroholdinglər var ki, onların daxilində 3/4 dənə aqropark var. Hələ 3/4 dənə aqroparkdan əlavə bir neçə aqrar şirkət, emal zavodları və s. nəticə etibarilə maksimal yeni insan növü yaranır. Elə bazarlar var ki, biz orda demək olar ki, kiçik təsərrüfat məhsullarını müşahidə etmirik. Fikrimcə bu düzgün addım deyil. Hansısa şirkətlərin dəstəyinə ehtiyacı yoxdur. Daha çox kiçik təsərüfatlılara dəstək lazımdır. Məsələn hansısa kəndlərdə kiçik təsərrüfatlar olur ki, onlar inkişaf edə bilmirlər. Onlara güzəştli kreditlər, subsidiyaları avadanlıq və texnikalarla təmin olunmalıdırlar ki, nəticədə vahid bir təsərrüfatda birləşsinlər.

”Ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından da böyük əhəmiyyətə malik aqroparkların yaradılması rayonların iqtisadi imkanlarını artırmaqla yanaşı, yeni iş yerlərinin yaranmasına da səbəb olur”. Bu sözləri İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Elşad Nuriyev bildirib.

Onun sözlərinə görə, aqroparkların aqrar-sənaye klasterlərində birləşməsi əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatının daha da yaxşılaşdırılmasına, yerli məhsulların rəqabət qabiliyyətliliyinin və ixracının artırılmasına, milli brendlərin və əlaqələndirilmiş vahid sistemin formalaşmasına, məhsul istehsalına çəkilən xərclərin, eləcə də maya dəyərinin aşağı düşməsinə və regionlarda məşğulluğun təmin edilməsinə şərait yaradacaq.

İndiyə qədər 25 aqroparka 184 milyon manat güzəştli kredit ayrılıb, 26 aqroparka isə investisiya təşviqi sənədi verilib ki, bunun nəticəsində sahibkarlar texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 39 milyon manat vəsaitə qənaət edib.

***Havar Şəfiyeva***

# Diplomatiyamızın NÖVBƏTİ UĞURU: Dünya mediası Brüsseldə keçirilən üçtərəfli görüşdən yazır













***Yaponiyanın "ajmedia.jp" portalı Azərbaycan Prezidenti İlham Əliyev, Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Brüsseldə keçirilən son üçtərəfli görüşü ətraflı işıqlandırıb.***

Belə ki, yapon və ingilis dillərində yayılan məlumatlarda üçtərəfli görüş və görüşün yekunlarına dair Şarl Mişelin bəyanatı yer alıb. Qeyd olunub ki, Aİ Şurasının Prezidenti Brüssel görüşündə Ermənistan və Azərbaycan arasındakı sülh müqaviləsinin irəliləməsi istiqamətində substantiv işin sürətləndirilməsi ilə bağlı razılıq əldə olunduğunu bildirib.

Ş.Mişel, həmçinin Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiyasına dair bütün məsələlərlə bağlı əldə olunmuş irəliləyişlərin və sabit vəziyyətin daha yaxşı təmin edilməsinin nəzərdən keçirildiyini, Sərhəd Komissiyasının növbəti iclasının noyabrda Brüsseldə keçirilməsi barədə razılıq əldə olunduğunu deyib.

Aİ Şurasının Prezidenti əlavə edib ki, görüş zamanı nəqliyyat xətlərinin açılması ilə bağlı şərtlərin müzakirəsində əldə olunmuş nəticələr də nəzərdən keçirilib. Hər iki tərəfin əhalisini uzunmüddətli və dayanıqlı sülhə hazırlamağın vacibliyi vurğulanıb.

Məlumatlarda Ş.Mişelin Aİ-nin hər iki ölkənin əhalisinin rifahı naminə iqtisadi inkişafın irəliləyişinə təkan verməyə davam edəcəyini söylədiyi də əksini tapıb.

Bundan başqa, Misir mediası Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşü işıqlandırıb.

Belə ki, "Əl Əhram", Əl Bavab", "Darəlmarif" və s. media orqanlarında dərc olunan materiallarda Şarl Mişelin görüşün yekunlarına dair bəyanatı yer alıb. Yazılarda qeyd olunub ki, Aİ Şurasının Prezidenti Brüssel görüşündə Ermənistan və Azərbaycan arasındakı dövlətlərarası münasibətləri nizamlayan sülh müqaviləsinin irəlilməsi istiqamətində substantiv işin sürətləndirilməsi ilə bağlı razılığa gəlindiyini bildirib. O, həmçinin Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiyasına dair bütün məsələlərə dair əldə olunmuş irəliləyişlərin və sabit vəziyyətin daha yaxşı təmin edilməsinin nəzərdən keçirildiyini, Sərhəd Komissiyasının növbəti iclasının noyabrda Brüsseldə keçirilməsi ilə bağlı razılıq əldə olunduğunu deyib. Aİ Şurasının Prezidenti əlavə edib ki, görüş zamanı nəqliyyat xətlərinin açılması ilə bağlı şərtlərin müzakirəsində əldə olunmuş nəticələr də nəzərdən keçirilib, hər iki tərəfin əhalisinin uzunmüddətli və dayanıqlı sülhə hazırlamağın vacibliyi vurğulanıb.

Materiallarda diqqətə çatdırılıb ki, Şarl Mişel Aİ-nin hər iki ölkənin və onların əhalisinin rifahı naminə iqtisadi inkişafın irəliləyişinə təkan verməyə davam edəcəyini söyləyib.

***Müasir elmi inkişaflar və texnoloji startaplar, ən yaxşı şirkətlərdə işləmək və dünyanı gəzmək imkanı və s. xaricdə təhsil bir çox yeni qapıları üzümüzə açır. Dünyanın ən yaxşı məktəb və universitetləri ABŞ, Avropa və bəzi Asiya ölkələrindədir. Xaricdə təhsil beynəlxalq karyera qurmaq üçün ilk addımdır və xarici universitetlər dünyanın aparıcı şirkətləri ilə əməkdaşlıq edir.***



# Xarici universitetlərdə təcrübə təhsil ölkəmizə nə verir?

Azərbaycan universitetlərində bir çox tələbələr nəzəri biliklərə yiyələnirlərsə, ABŞ və Avropa ölkələrində fərqli yanaşma mövcuddur. Burada təhsilin əsas məqsədi diplom yox, təcrübədir. Hər kəs təkcə qiymətlərə deyil, həm də biliklərini necə tətbiq edəcəklərinə diqqət yetirir. Beynəlxalq Biznes Məktəbinin tələbələri artıq təhsil aldıqları müddətdə regionların sosial-iqtisadi inkişafı üçün layihələr yaradılır və müsabiqə qalibi öz ideyalarını həyata keçirmək üçün 1 milyon dollar alır. Mərkəzi Florida Universitetinin tələbələrindən biri "Limbitless Solutions" layihəsinin əsasını qoyur və bu layihə çərçivəsində universitetdə əlil uşaqlar üçün bionik protezlər yaradır.

Universitet tələbələri dəniz tədqiqatları aparır, rəqəmsal media üzərində işləyir və mühəndislik layihələri və s. yaradırlar. Universitetə daxil olduqdan sonra da istənilən təhsil ilində ixtisaslarını dəyişmək imkanları qazanırlar. Xarici dövlət universtetləri təkcə uğurlu karyera qurmaq üçün yox, uğursuzluqlardan qorxmamağı, prioritetləri düzgün təyin etməyə və dünyaya daha geniş baxmaq üçün bir təcrübə yolu kimi göstərmək olar.

Sevindirici haldır ki, bir çox tələbələr təcrübə keçdikləri müəssisələrdən iş təklifləri alırlar. Tələbələrin ixtisas, xarici dil və informasiya texnologiyaları bilikləri yüksək qiymətləndirilir. Hər il universitetlərdən yüzlərlə tələbə təcrübə keçdikləri təşkilatlarda müqavilə bağlayır. Ən nüfuzlu universitetlərdən olan Qərbi Kaspi Universiteti tərəfindən bu il keçirilən 50-dək şirkətin qatıldığı əmək yarmarkası tələbələr üçün yeni iş imkanları açıb. Universitetin xeyli sayda tələbəsi və məzunu bu yarmarkada iştirak edərək işlə təmin olunub və təcrübə proqramlarına qoşulub.

Universitet tələbələrini işə götürməklə də onların məşğulluq problemini həll edir. Hazırda universitetin onlarla məzun və tələbəsi bu ali təhsil ocağının laboratoriyalarında, mərkəzlərində müxtəlif vəzifələrdə, o cümlədən müəllim kimi fəaliyyət göstərir.

Qərb Kaspi Universitetində fəaliyyət göstərən karyera mərkəzi tələbələrin uğurlu karyera qurması istiqamətində tədbirlər reallaşdırır. Bununla yanaşı, tələbələr üçün işədüzəlmə müsahibəsində müvəffəqiyyət qazanmaq üçün müxtəlif təlimlər keçirilir. Bir çox mərkəzlər tələbə və məzunlara ixtisaslarına uyğun iş yerləri tapmaqda yardım edir. Əgər tələbələr xarici universitetlərdə təcrübə almaq istəyirsə bu zaman universitetin tələblərlə iş departamentinə müraciət edə bilərlər. Təhsil aldığınızın təhsil pilləsindən asılı olmayaraq, əgər sonuncu kurs tələbəsisinizsə, universitetin nəzdində və ya universitetlə əlaqəli olan fərqli şirkətlərdə iş imkanı tapmağınız çox yüksək ehtimaldır. Bundan əlavə, dərslər zamanı professorların özü də seçilən tələbələrinə iş təklifləri edilir və əksər hallarda bu iş təklifləri uzunmüddətli işlər də ola bilir.

Tələbə Təcrübə Mübadilə Proqramı (ELSA) Azərbaycanın yeni yaranmş və mühüm sahələrindən biri hesab olunur. Komandanın əsas işi təcrübə proqramları təşkil etmək, xarici tələbələrin bu proqramda iştirakını təmin etmək, yerli tələbələrin isə xarici təcrübə proqramlarında iştirakını təşkil etməkdən ibarətdir. Tələbə Təcrübə Mübadilə Proqramı tələbələrə öz hüquqi biliklərini təkmilləşdirmək, xarici ölkələrin hüquq sistemləri ilə yaxından tanış olmaq, xarici dil biliklərini inkişaf etdirmək habelə təcrübə keçdikləri ölkənin mədəniyyəti ilə yaxından tanış olmaq imkanı yaradan bir proqramdır. Təcrübə müddəti 2 həftədən 2 ilədək davam edə bilir. ELSA təcrübə keçəcək şəxslərə proqramdan əvvəl və proqram müddətində yaşayış, viza və mühitə uyğunlaşma sahələrində böyük dəstək verir.

### STEP proqramına yalnız ELSA Azərbaycanın üzvü olan şəxslər müraciət edə bilər və aşağıdakı prosedur izlənilməlidir:

ELSA Azərbaycanın STEP üzrə vitse-prezidenti ilə əlaqə saxlamaqla məlumat əldə etmək;

STEP üzrə vitse-prezidentdən əldə etdiyiniz tələbə müraciət formasını doldurmaq;

STEP üzrə vitse-prezidentindən müraciət formasında təqdim etdiyiniz məlumatların yoxlanılması üçün görüş təyin etməyi xahiş etmək;

Müraciət formasında bütün mühüm məlumatlar doldurulmalıdır və müraciətçi eyni zamanda 3 təcrübə proqramını qeyd edə bilər. Təcrübə proramına müraciət edərkən, son müraciət tarixi, təcrübə müddəti və tələblərə diqqət yetirilməlidir.

**Müraciət formasını doldurarkən aşağıdakı punktlar nəzərə alınmalıdır:**

Təhsil səviyyəsi
Dil bilikləri
Hüquqi biliklər
CV
Motivasiya məktubu



**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fəlsəfə doktoru İlqar Orucov** SİA-ya açıqlamasında tələbələrin xarici universitetlərlə mübadilə proqramlarından danışıb.

Dünyanın müxtəlif ölkələrində belə praktika mövcuddur. Daha çox mübadilə proqramları, diplom proqramların tətbiqi zamanı təcrübədən yararlanmaq faydalıdır. Ümumillikdə hesab edirəm ki, bizim tələbələr xarici universitetlərdə təcrübə keçəndə həmin universitet mühiti ilə tanış olacaq, həmin universitetlərdə təhsil alan tələbələrə əlaqə imkanların yaranması və öz təcrübələrini bölmək imkanları olacaqdır. Bilik mübadiləsi proqramları əsasında öz təcrübələrindən güclü və zəif tərəflərini öyrənmək imkanları olacaq və eyni zamanda dünya görüşlərin artmasına gətirib çıxaracaq.

Xarici universitetlər dedikdə təbii ki, nüfuzlu universitetlərdən söhbət gedir. Və bu əlbəttəki tələbələrdə daha çox çalışmaq, əzm göstərmək kimi vərdişlər formalaşdıracaq. Düşünürəm ki, həm də sosiallaşma baxmından öz həmkarları ilə eyni sahədə oxuyan tələbləri ilə bilik mübadiləsi baxmından əlavə faydalar əldə edə biləcəklər.

Eyni zamanda xarici universitetlərdə təhsil alan tələbələrin təcrübə keçməsinə hesab edirəm ki, mühitlə yerimesi istiqamətində yaxşı mənada ənənənin formalaşması ola bilər. Əlbəttə ki, bizim universitetlərdə o təcrübəni keçmək imkanları kifayət qədər geniş olmasa da, qabaqcıl universitetlərin getdiyi yollardan faydalanmaq olar. ADA Universteti, Bakı Ali Neft Məktəbi, hətta regionlarımızda olan savadlı kadrlı universitetlərdə təcrübələr keçmək olar. Və bildiyim qədər Azərbaycan Texniki Universteti, Mühəndislik Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti kimi təhsil ocaqlarda da təşkil etmək olar. Bir çox ölkələrdə bu gün işlər müxtəlif proqramlar çərçivəsində eyni zamanda tələbələrin özlərinin də arzuları çərçivəsində reallaşdırılır. Ümid edirik bizim universitetlərdə də həmin proqramlardan istifadə edəcəklər.

"Bildiyiniz kimi Azərbaycanın Ali təhsil məktəbləri beynəlxalq səviyyədə xarici ölkələrin digər ali təhsil məktəbləri ilə əməkdaşlığı bugünki günün reallığına cavab vermir, amma bununla yanaşı deyək ki, Azərbaycan Dövlət Pedaqoji Universiteti, ADA Universiteti, İqtisad Universiteti, Lənkəran Dövlət Universiteti və bir sıra universitetlər var ki, bunlar ikili diplom lahiyəsini həyata keçirirlər". **Bu**



**sözləri SiA-ya açıqlamasında təhsil eksperti Eləş Qafarov** deyib. Avropanın bir çox universitetlərindən xüsusilə də əməkdaşlıq qardaş Türkiyənin ali məktəbləri ilədir və bu ali məktəblərdə ikili diplom layihəsi həyata keçirilir. Amma pandemiyadan öncə "Dədə Qorqud" layihəsi vardır ki, qardaş Türkiyənin Ali təhsil müəssisələrindən Azərbaycanın Ali təhsil müəssələrinə tələbə və müəllim mübadiləsi yer alırdı. Bu gün Ali təhsil məktəblərimizdə təhsilin və tədrisin ümumillikdə keyfiyyətinin artırılması ilə yanaşı beynəlxalq tənzimləmələrin böyük əhəmiyyəti vardır. Və ilk növbədə bu əməkdaşlıq istər təhsil alanların, istərsə də pedaqoji heyyətin fəaliyyəti ilə həyata keçirilməlidir. Bu sahədə görüləcək çox işlər vardır. Xaricdə təcrübə keçmək istəyən tələbələrə təbii ki, layihə elan olunan zaman müəyyən şərtlər göstərilir.

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov** isə qeyd edir.

Türkiyənin bir çox nüfuzlu universiteti ilə ikili diploma dair müqavilələrimiz var. Tələbələrimiz həm bizim, həm də o universitetlərin diplomunu ala biləcək.

London İqtisadiyyat Məktəbininin beynəlxalq proqramını universitetimizə gətirmişik. Proqramın mahiyyəti ondan ibarətdir ki, birinci kursumuzu bitirən tələbə London İqtisadiyyat Məktəbi tərəfindən "foundation" kimi qəbul edilir. Bu, o tələbələrə şamil edilir ki, onların orta müvəffəqiyyət göstəricisi 80 baldan aşağı olmasın. Bu tələbələrin sənədlərini toplayıb göndəririk Londona, onlar seçim edirlər. Bu il 6 belə tələbə var. Onlar UNEC-də təhsil alırlar, müəllimləri əcnəbidir. Onların tədris proqramları bütövlükdə London İqtisadiyyat Məktəbininki ilə eynidir. Dərsliklər də həmçinin. Həmin 6 tələbəmiz "British Counsil"da imtahan verir, imtahan nəticəsi Londona göndərilir. Yekunda tələblərimiz həm İqtisad Universitetinin, həm də London İqtisadiyyat Məktəbinin diplomu-



nu alacaqlar.

Almaniya ilə əməkdaşlığımız üzərində işlər gedir. Tamamilə yeni ixtisas olacaq və ikili diplom çərçivəsində Almaniyanın Universiteti ilə bizim əməkdaşlığımız gözlənilir. Düşünürəm ki, bu tendensiya davam edəcək. Yanaşma belədir ki, cənab Prezidentin dediyi kimi, Azərbaycan gənclərinin xaricdə təhsil alması əvəzinə, ən müasir xarici, mütərəqqi təhsili Azərbaycana gətirmək. Düşünürəm ki, müasir xarici təhsil müəssisələrini Azərbaycana gətirə biləcəyik. Biz çox hallarda öz potensialımızı layiqincə qiymətləndirə bilmirik və bir sıra hallarda mövcud potensialdan səmərəli istifadə edilməsi məsələsi aktuallaşmır. Biz iddialıyıq ki, təhsilimizdə ixrac oluna bilən elementlər də var. Biz də rəqabət aparmaq iqtidarındayıq.

Yunanıstanın Qərbi Makedoniya Texnologiya Təhsil İnstitutu ilə İqtisad Universitetinin müqaviləsi var. Bu Avropa İttifaqı çərçivəsində reallaşan layihədir. Orada 120 kreditlik magistr proqramının 30 kreditini bizim universitetin müəllimləri tədris edir. Biz Avropa İttifaqına üzv olan Yunanıstanda kadr hazırlığını həyata keçirəcəyik. Diplomda da İqtisad Universitetinin adı yazılacaq.

Rektor Türkiyə, Böyük Britaniya və Portuqaliyanın ali təhsil müəssisələrində doktorantura təhsili alan gənclərlə təhsillərinin mövcud vəziyyətini qeyd edib. Məzunların bilik və bacarıqlarla yanaşı, dəyərlərə də sahib olmalarının vacibliyini qeyd edən professor Ədalət Muradov bu istiqamətində gənc müəllimlərin üzərinə böyük məsuliyyətin düşdüyünü bildirib.

***Havar***

ARAŞDIRMA

# Bir şagirdin məktəb ləvazimatları NEÇƏYƏ BAŞA GƏLİR?






***15 sentyabr ölkəmizdə "Bilik Günü" kimi qeyd edilir. Bu günün həm orta məktəb şagirdlərinin, həm də valideynlərin həyatında təbii ki, bir özəlliyi var. İndi məktəblilərin və valideynlərin işini asanlaşdırmaq məqsədilə şəhərin müxtəlif yerlərində, metro çıxışlarında məktəb ləvazimatları satılan bu cür yarmakalar təşkil olunub. SİA olaraq yarmarkadakı ümumi vəziyyəti öyrənmək və qiymətlərlə bağlı məlumat almaq üçün 28 May metrosunun çıxışda yerləşən məktəb ləvazimatı satılan yarmarkalara yaxınlaşdıq.***



Yaxınlaşdığımız ilk satıcı Nicat bəy bizi ümumi qiymətlərlə tanış etdi.

Onun sözlərinə görə, məktəb ləvazimatlarının qiymətində o qədər də artım müşahidə olunmur: "Yalnız dəftərin qiymətində 5 qəpik artım var. Ümumilikdə dəftərlərin qiyməti 50 qəpikdən başlayır, 1 manata kimi qalxır. Qələmlərin qiyməti isə 40 qəpikdən başlayır və 2 manat kimi davam edir. Çantaların qiymətinə gəldikdə isə, qiymətlərimiz 10 manatdan başlayaraq 50 manat aralığında dəyişir. Təbii ki, hər bir ailə öz cibinə uyğun olaraq övladına bazarlıq edə bilər. Mən sizə deyərdim ki, hətta 50 manata belə hər bir şey almaq olar. Keçən il bildiyiniz kimi, pandemiya səbəbindən məktəblər açılmadı və məhz bu səbəbdən satış olmadı. Lakin pandemiyadan öncəki ildə isə satış çox yaxşı idi. Həmin illə müqayisədə bu il satış çox zəifdir. Biz alıcılara əlimizdən gələn endirimi edirik ki, hər kəs öz uşağına nəsə ala bilsin. Məktəb alış-verişi edərkən alınmalı ləvazimatlardan biri də su qablarıdır. Su qabların qiyməti 5 manatdan başlayaraq 12 manata kimi təşkil edir. Valdeynlər əsasən öz övladlarına 8 manat aralığında olan su qabları alırlar. Qələm qabları isə keyfiyyətinə görə dəyişir. Əsasən normal vəziyyətdə olan qələmqabları 5-6 manata olanlardır".

Növbəti yarmarkaya üz tutduq. Burada satış işi ilə məşğul olan Əli bəyə yaxınlaşdıq.

Satıcının fikirlərinə görə, bu il satışda olan vəziyyət çox acınacaqlıdır: "Fikrimcə, ötən illərə nisbətən ən zəif satış bu il olacaq. Amma yenə də ümidi itirmək olmaz. Çünki sentyabr ayı təzə başlayıb. Alıcılar əsasən öz cibinə uyğun olan məktəb ləvazimatlarına önəm verirlər. Təbii ki, qiymət artımları var. Əsasən, kağız məhsullarının qiyməti daha çox qalxıb. Çantalarımızın qiyməti 20 manatdan başlayır. Bu il ən çox satdığımız çantaların qiyməti 25-30 manat civarında olub. Əsasən, qız uşaqlarının istifadə etdiyi saç bandlarının qiyməti 50 qəpik və 3 manat aralığındadır. Qələm qabların qiyməti keyfiyyətinə, görünüşünə və firmasına görə dəyişir".

Satıcının sözlərinə görə, 1-ci sinifə hazırlaşan şagirdə minimum qiymətlə bazarlıq etmək üçün 50 manat bəs edir. Lakin yuxarı sinif şagirdlərinə isə bu məbləğ 70-80 manat təşkil edir. Ancaq valdeyin öz övladına məktəb ləvazimatlarının keyfiyyətlisini almaq istəyirsə, 1-ci sinifə gedən şagirdə maksimum 100 manat lazımdır.

Yarmarkadakı qiymətləri və alıcı səviyyəsini öyrəndikdən sonra öz övladı üçün bazarlıq edən valdeynlərin fikirlərini öyrənmək məqsədilə onlara yaxınlaşdıq.



**Şəhər sakini Gülnaz Təhməzova:** "Qiymətlər heç də ürəkaçan deyil. Çünki həddindən artıq bahalıqdır. Övladıma məktəbli çantası almaq istəyirəm. Lakin bayaqdan bütün çantalara baxıram, qiymət baha, keyfiyyət isə çox aşağıdır. Mənim fikrimcə, bir şagirdin məktəbə tam hazır vəziyyətdə getməsi üçün 300 manat lazımdır. Bu məbləğ də hər kəsin cibinə uyğun deyil. Əvvəlki illərə nəzərən bütün məktəbli ləvazimatlarının qiyməti artıb".

**Şəhər sakini Orxan Babayev:** "Qızım bu il birinci sinifə gedəcək. Ona görə bazarlıq etməyə gəlmişik. Qiymətlər bahadır. Əsasən, dəftərlərin qiymətinin yüksək olduğunu desələr də, təkcə kağız ləvazimatları deyil, hər şeyin qiyməti qalxıb. Buna görə bu vəziyyət heç də yaxşı hesab olunmur".

**Şəhər sakini Aysel Vəliyev:** "Mənim övladım birinci sinifə getməyə hazırlaşır. Mağazalarda qiymətlər çox bahadır. Lakin yarmarkalardakı qiymətlər bir az ucuzdur. Bir uşağın tam formada məktəbə hazır olması üçün 500 manat lazımdır. Fikrimcə, bu qədər bahalıq çox yersizdir. Hər kəs ürəyi istədiyi kimi öz övladına bazarlıq edə bilmir".

**Şəhər sakini Əli Quliyev:** "Yarmarkalarda qiymət yaxşıdır. Mağazalarda qiymətlər od tutub



yanır. Ona görə də hər kəsə yarmarkadan bazarlıq etməyi tövsiyə edərdim. Kəskin şəkildə qiymətlərdə fərq hiss olunur. Həmçinin, məhsulların keyfiyyəti də heç yaxşı deyil. Lakin keyfiyyət aşağı olsa da, ona layiq qiymət qoyulmur".

**Şəhər sakini Günay Əliyeva:** "Mən hələ ki, övladlarıma bazarlıq etməmişəm. Bu səbəbdən də qiy-



mətlər barədə məlumatım yoxdur. Lakin eşitdiyimə görə, qiymətlərdə artım var. Düşünürəm ki, hər bir uşağın məktəb ləvazimatı üçün maksimum 100 manat bəs edir".

***Banuçiçək Hüseynli***



# Paşinyan, Vardanyan və konqresmenlər - üçü bir bezin qırağı

***Dəyirman öz işindədir, çax-çax baş ağrıdır. Bu misalı nəyə görə xatırlatdığımı yazının bir iki cümləsini oxuyandan sonra biləcəksiniz. Azərbaycan Vətən müharibəsində əldə etdiyi möhtəşəm qələbənin artıq ikinci ildönümünə hazırlaşır. Qarabağın status "cəhənnəmə gedib", həmsədrlər də onun dalıca, bölgədə davamlı sülhün yaradılması üçün tərəflər arasında müxtəlif formatlarda danışıqlar gedir, Azərbaycan məğlub Ermənistana yeni-yeni şanslar verir, bəzi güzəştləri diktə edir, amma bəzi dairələr isə əksinə ermənilərdən istifadə şanslarını yenidən sınamaq istəyirlər. Amma ermənilər də dinc dayanmır, müxtəlif vasitələrlə vəziyyəti gərginləşdirməyə, üçüncü, dördüncü tərəfləri münaqişəyə cəlb etməyə çalışırlar.***



Dünən xəbər yayıldı ki, Ruben Vardanyan adlı erməni əsilli Rusiya vətəndaşı Qarabağa köçüb. Bu şəxsin kimliyi, sosial və psixi vəziyyəti barədə məlumat əldə etməyə çalışdıq. Məlum oldu ki, R.Vardanyan Rusiyada kifayət qədər tanınmış bir ermənidir. Var-dövləti milyardlarla ölçülür. Və birdən Rusiya vətəndaşlığından imtina edir, pulunu-parasını götürür, Ermənistanın nəzarət etmədiyi, sadəcə Rusiya sülhməramlılarının müvəqqəti nəzarət etdiyi Qarabağa gəlir. Sizcə, bu subyektin etdikləri təəccüblü, bir az da müəmmalı deyilmi? Ermənilərin, əksinə, Ermənistandan qaçdığı halda iş adamı Ruben Vardanyanın niyə birdən-birə "Artsax" adlı qeyrət damarı tutub? Onun Xocavənddən verdiyi xüsusi videomüraciət də maraqlıdır? Bildirir ki, dünya erməniləri Qarabağdakı ermənilərlələ bir yerdə olmalıdır: "Bu il 700-dən çox uşaq doğulub. Biz onların qarşısında cavabdehik və bura, ermənilərin mərkəzinə gəlməliyik. Mən çox minnətdaram ki, Rusiya "Artsax"dadır, sülhməramlı qoşunlar buradadır və erməni xalqının təhlükəsizliyini qoruyur".



Əvvəla, sözümüzü Qarabağda müvəqqəti olan sülhməramlılara deməliyik. Bu səlahiyyəti onlara kim verib? Kimin göstərişi ilə dünyanın harasında yaşamasından asılı olmayaraq bütün erməniləri Qarabağda məskunlaşdırır, daha doğrusu onların yaşamasına yardımçı olur? Müharibənin son günlərində Qarabağdan qaçan ermənilərin geri qaytarılmasında sülhməramlıların cənfəşanlığını belə yoxduq ki, həmin ermənilər burada yaşayıblar və bu məsələ ilə sonar məşğul olarıq. Bəs bu fakta nə deyəsən? Erməni əsilli Rusiya vətəndaşı social hüquqlarından imtina edir və Qarabağa köçür, sülhməramlılar isə nəinki etiraz etmir, həmçinin buna şərait də yaradır. Məgər Qarabağ Rusiya sülhməramlılarının dədəsinindir ki, gələnə-gedənə qapılarını taybatay açır. Bu barədə "sülhməramlılar"dan hesab sorulmalı, bu özbaşınalığa son qoyulmalıdır.

Vardanyanın bura gəlişinin başqa səbəbləri barədə də Ermənistan mətbuatı yazıb. Bildirilib ki, adıçəkilən milyarder separatçıların qondarma qurumunda "dövlət naziri" vəzifəsini tutacaq. Bir başqa mənbələr isə Ruben Vardanyanın vəzifə məsələsində daha ciddi və yüksək kürsülərə iddialı olduğundan yazır. Onun hətta Ermənistanın baş naziri postuna oturdulacağı barədə xəbərlər də dolaşır. Bir sözlə bu ikiayaqlı barədə təcili tədbir görülməli, milyonların işığına gözünü bərəldən ermənilərin arzusunu gözlərində qoymalıyıq.

Əldə etdiyimiz digər xəbər isə Ruben Vardanyan üçün heç də yaxşı bir şey vəd etmir. Məsələ Rusiya ilə və Qərbin bu ölkəyə qarşı tətbiq etdiyi sanksiyalarla bağlıdır. Məlumdur ki, Qərb təkcə Rusiyanın rəsmi qurumlarına yox, həmçinin bu ölkədə milyardlara sahib oliqarx və sahibkarlara qarşı da sanksiyalar tətbiq edib. Rusiyanın imkanları ilə zənginləşmiş milyarderlər dolayısı ilə həm də Rusiyaya qazanc gətirirlər. Rusiya bu oliqarx və digər var-dövlət sahiblərinin çiynində dayanıb. Qərb yaxşı bilir ki, bu "orta dirək"ləri laxlatmaqla, yıxmaqla Rusiyanı məhv etmək olar. Bunu Rusiyada da yaxşı anlayırlar. Ona görə də bütün imkanlardan istifadə edirlər ki, milyardları sanksiyalardan yayındıra bilsinlər. Rubenin Qarabağa Rusiya vətəndaşlığından imtina edərək Qarabağa gəlməsinin də arxasında bu sirrlər yatır. Yoxsa, Vardanyan millət dərdi çəkən ermənilər arasında ən axırıncısıdır.





Bu gün həm də ermənilər Qarabağda vaxtilə qanunsuz elan etdikləri müstəqilliyin 31 illiyini qeyd ediblər. Ermənistanın sayca üçüncü presidenti bəbək qatili Serj Sarkisyan soydaşlarını "əlamətdar" tarix münasibətilə təbrik etmək istəyib. Lakin nə dili dönüb, nə də qəhərdən danışa bilib. Bircə onu deyə bilib ki, "Bu gün artıq Artsaxda milli sevinc günü deyil".



Dili topux vura-vura əlavə edib ki, əvvəl olduğu kimi, ənənəvi təbriklər, bayram atəşfəşanlığı və ümumxalq sevinci olmayacaq, müstəqillik təhlükə altında olduğundan, Qarabağ arxadan ağır bir xain zərbə aldı, üç onillik ərzində dünya ermənilərinin səyləri ilə əldə saxlanılan Vətənimizi itirdik: "Ermənistanda və Qarabağda isə bütün xalq adından və eyni adamların arxası ilə qərarlar qəbul edilir, danışıqlar aparılır və ölkəni yalançı sülhsevərlər təmsil edir, onlar evin qapılarını geniş miqyasda düşmənin üzünə açırlar. Bir vaxtlar Qarabağın təhlükəsizliyinin təminatçısı olan Ermənistan üçün təhlükələr günügündən daha çox narahatedici ölçülərə çatacaq. Yalnız dövləti məhv edən, milləti məhv edən idarəçilərin tez bir zamanda uzaqlaşdırılması ölkəni bu fəlakətli vəziyyətdən çıxarmağa, layiqli danışıqlar aparmağa, tərəfdaşlarla əlaqələr qurmağa imkan verə bilər. Bu sadə həqiqəti dərk etməmək Ermənistan üçün fəlakətli ola bilər".

Ermənistanın baş naziri Nikol Paşinyan isə Brüssel danışıqlarının ab-havasına uyğun olmayan mövqe nümayiş etdirib. Qondarma qurumun yaranmasının ildönümü münasibətilə erməniləri təbrik edib. Tarixə naşıcasına ekskurs edən Paşinyan 31 il əvvəl baş verən hadisələri o ki var təhrif edib, Sumqayıtda, Bakıda baş verənlərdən danışıb, amma Ermənistanda azərbaycanlıların başına açılan oyunlardan, yüzlərlə soydaşımızın vəhşicəsinə öldürülməsindən bircə kəlmə də danışmayıb. Əvəzində: "Ermənilərin Qarabağda yaşamağa davam etməsi faktı dəyişməz olaraq qalıb. Qarabağın ərazi vahidi kimi mövcud olmaması və problemin həlli ilə bağlı bütün bəyanatlar ermənilərin təhlükəsizliyi və hüquqlarının müdafiəsi məsələləri ciddi şəkildə həll olunmayana qədər yersizdir. Qarabağın statusu və bununla bağlı ATƏT-in Minsk Qrupunun həmsədrliyinin beynəlxalq ictimaiyyət tərəfindən təsdiq edilmiş və ləğv edilməmiş mandatı var", deyə bildirib.

Bir az da okeanın o tayından gələn səslərə qulaq asaq. ABŞ Konqresinin Erməni Məsələləri üzrə Komissiyasının üzvləri Frenk Palon, Qus Bilirakis, Ceki Sper, Devid Valdao və Adam Şiff Qarabağın müstəqilliyinin 31-ci ildönümü münasibətilə "Dağlıq Qarabağ Respublikası"nın rəhbərinə təbrik məktubu göndəriblər. Diqqət edin, əziz oxucular, görün dünyaya üzdə sülh diqtə edən, suverenlik və ərazi bütövlüyü kimi vazkeçilməz atributları əzib keçək bir ölkənin konqresmenləri separatçıların ələbaşına nə yazıblar. Sadəcə utancvericidir: "Prezident Arutyunyan, sizi və Qarabağ xalqını müstəqilliyin 31-ci ildönümü münasibətilə təbrik edirik! ABŞ Konqresinin Erməni Məsələləri üzrə Komissiyası Azərbaycandan gələn təhdidlərə və daimi çağırışlara inanılmaz dözümlülüklə müqavimət göstərdiyiniz zaman xalqınıza öz dəstəyimizi bildiririk. Biz ABŞ hökumətini 2020-ci ildə Qarabağa hücum etdiyinə və bu günə qədər də davam edən hərəkətlərə görə Azərbaycan və Türkiyəni cəzalandırmaq üçün bütün diplomatik vasitələrdən istifadə etməyə çağırırıq".

İndi bildinizmi, Azərbaycan indiyədək hansı şər qüvvələrlə mübarizə aparıb? Təkcə erməniyə və Ermənistana qalsaydı, yəqin ki, 1993-cü ildə düşmənin ağzını qırıb onu İrəvana qədər qovardıq. İtin nə qədər yiyəsi olduğunu yəqin ki, anladınız. Beləliklə dünyanın mizan-tərəzisi pozulub desək, daha düzgün alınar. Məlum oldumu ki, niyə ABŞ və Fransanın da həmsədr olduğu Minsk qrupu "cəhənnəmə" getdi. Bəli, düz tapdınız, məhz bu ölkələrin separatçılığı birbaşa dəstəklədikləri üçün, haqlı ilə haqsız olanı seçə bilmədikləri üçün danışıqlardan kənarlaşdırıldılar.

**V.VƏLİYEV**

BAXIŞ BUCAĞI

# Bəşəriyyətin Heydər Əliyev dühası!



*31 il əvvəl - 3 sentyabr 1991-ci ildə Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməklə Azərbaycan böyük təhlükələri dəf etməyi bacardı*

***Hər bir tarixi şəxsiyyətin xidmətləri mənsub olduğu xalqın yaddaşında əbədi qalır, ancaq bununla məhdudlaşmır. Çünki elə dühalar var ki, onlar həm də bəşəri əhəmiyyətli işlər görürlər. Bunu böyük tarixi şəxsiyyətlər dəfələrlə qeyd etmişlər. Böyük Plutarx yazırdı: "Azadlıq bərabərdir xalq, üstəgəl şəxsiyyət. Şəxsiyyətsiz azadlıq xəyaldır". Bismark isə deyirdi: "Şəxsiyyəti olmayan xalqın azadlıq uğrunda mübarizəsi ağlasığmazdır. Xalq öncə şəxsiyyətin ətrafında birləşir, yalnız bundan sonra ideyalar haqqında düşünməyə başlayır".***

Böyük Nəsirəddin Tusi yazırdı ki, "hökmranlıq o adama yaraşır ki, cəmiyyət xəstələndikdə onu müalicə edə bilsin. Çünki hökmdar ölkənin həkimi yerində olmalıdır". Sokrat isə qeyd edirdi ki, "dövlətə təcrübəli, səriştəli adamlar başçılıq etməlidirlər. Gəmini müəyyən biliyə, təcrübəyə və vərdişlərə malik olan adamlar idarə edə bildiyi kimi, dövləti də o qəbildən olan adamlar idarə etməlidirlər".

## Ulu Öndər: "İdarəçilik təcrübəsi olmayan adam dövlətə rəhbərlik edə bilməz"

İdarəçiliyi hər adam apara bilməz. Ulu öndər bununla əlaqədar olaraq demişdir: "İdarəçilik təcrübəsi olmayan adam dövlətə rəhbərlik edə bilməz". Ulu öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində, eləcə də 90-cı illərdə və XXI əsrin əvvəllərində özünü görkəmli dövlət xadimi, fenomenal qabiliyyətə və yüksək intellektə malik olan bir insan, uca şəxsiyyət, bütün sahələrə dərindən bələd olan rəhbər, uzaqgörən siyasi xadim kimi göstərmişdi. Dünyanın az-az dövlət xadimlərinə müyəssər olan keyfiyyətlər bu qüdrətli dövlət xadimində tamamilə cəmlənmişdi. Təsadüfi deyildir ki, Heydər Əliyev fenomeni hələ həmin illərdə dünya ictimai-siyasi fikrinin diqqət mərkəzində idi. Dünyanın çoxsaylı siyasətçilərindən, dövlət xadimlərindən Heydər Əliyevin fərqi onda idi ki, o, bütün istiqamətlərdə düşünmək qabiliyyətinə və peşəkarcasına fikir söyləmək imkanlarına malik idi. Dünya siyasətçiləri arasında bu cür "dünyəvi düşüncə tərzi"nə malik olan siyasətçilər çox azdır. Elə bu səbəbdəndir ki, ən böyük siyasət korifeyləri bu dahi şəxsiyyətə böyük hörmət hissi ilə yanaşmış, ona qibtə ilə baxmış, ilk söhbətlərindən və tanışlıqlarından onu özlərinə dost hesab etmişlər: "Sizə həqiqətən qibtə edirəm", "Mən Sizi müəllimim hesab edirəm", "Mənim üçün xüsusilə böyük məmnunluqdur ki, bizim strateji, siyasi əhəmiyyət verdiyimiz bir ölkə Sizin kimi dünya şöhrətli şəxsiyyətlər tərəfindən idarə olunur" və sair... Qüdrətli siyasət və dövlət adamı olan ulu öndər Heydər Əliyev Azərbaycanımızın ən çətin anlarında xilaskarlıq missiyasını öz üzərinə götürmüş və dövlətçiliyimizi məhv olmaqdan xilas etmişdir. Ötən əsrin 90-cı illərində də belə olmuşdur. Hakimiyyət iddiası ilə zor gücünə hakimiyyətə gələn səriştəsiz "bəylər" ölkəni acınacaqlı vəziyyətə salmış, siyasi, iqtisadi, hərbi böhranla üz-üzə qoymuş, vətəndaş müharibəsinə rəvac vermiş, qardaş qanı tökülməsinə səbəb olmuş, bundan istifadə edən məkrli düşmənlərimiz isə torpaqlarımızın bir hissəsini işğal etmiş, yüz minlərlə vətəndaşımız və soydaşımızı qaçqın və köçkün həyatına düçar etmişdir. Ölkə əhalisinin tam əksəriyyəti nicat yolunu ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsində görmüşdür.Faciələrin miqyasına, münaqişələrin mürəkkəbliyinə görə 1993-cü il Azərbaycan dövləti üçün ən ağır dövr idi. Baş verən hadisələr xalqımızın tarixində böyük faciə idi. Ən böyük faciə isə belə adamların hakimiyyətdə olması, lakin dövlətçilikdən baş çıxarmaması idi. Ölkədə özbaşınalıq, lidersizlik və dəhşətli bir hərc-mərclik hökm sürməkdə idi. Bu hadisələr bir daha göstərdi ki, müdriklər duran yerdə hakimiyyəti nadanlara vermək özü də cinayətdir. Bu, hakimiyyət kürsüsü xatirinə bir ölkəni, bir milləti fəlakətə sürükləməyə bərabərdir.

Bəli, Azərbaycan Prezidenti İlham Əliyev bununla bağlı demişdir: "Heydər Əliyevin timsalında biz əyani şəkildə görürük ki, şəxsiyyətlərin tarixdəki rolu bəzi hallarda əvəzolunmaz olur. Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan bir amildir".

## Naxçıvandan başlanan tarixi missiya

31 il öncə 1991-ci il sentyabrın 3-də keçirilən və tariximizdə özünəməxsus yer tutan fövqəladə sessiyasında Ulu Öndər Heydər Əliyevin Ali Məclis Sədri seçilməsi də tarixdə liderlərin rolunun əvəzolunmazlığını təsdiq edən mühüm hadisələrdən biridir. 3 sentyabr 1991-ci ildə keçirilən Naxçıvan MR Ali Məclisinin sessiyasının nəticəsini meydanlara toplaşan insanlar səbirsizliklə gözləyirdilər. O günlərdə yaşadığı həyəcanını sonradan Rusiyanın jurnalistləri ilə görüşündə xatırlayan Ulu Öndər belə deyirdi: "Sədr seçmək məsələsi gündəlikdə dururdu... Sessiya iki və üç gün davam etdi. Bir nəticəyə gələ bilmədilər. Evə gəlib məni oraya dəvət etdilər. Üç-dörd dəfə boyun qaçırdım. Özümün razılığım olmadan məni Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri seçdilər" söyləyən Ulu Öndərin bu qərarı Azərbaycanın taleyinin dönüş nöqtəsi oldu. Özünəməxsusluğu ilə seçilən həmin tarixi günün əhəmiyyətini "Çox böyük mənəvi əziyyət içərisindəyəm ki, mənim razılığım olmadan məni sədr seçdilər. Ancaq bu zamanın, dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim" sözləri ilə bildirən, yalnız xalqı üçün yaşayan, insanların xoşbəxt gələcəyi naminə çalışan ulu öndər Heydər Əliyev vurğulayırdı ki, Azərbaycanın belə ağır vəziyyətində, çətin günündə naxçıvanlıların tələbindən imtina etmək, geri çəkilmək, insanlara dəstək olmamaq onların ümidlərini qırmaq demək idi: "Ancaq eyni zamanda mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini yəqin ki , indi, bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm". "Onun Naxçıvan MR Ali Məclisinə sədr seçildiyi gün tək muxtar respublikanın deyil, bütünlükdə Azərbaycan xalqının xilas günü kimi tarixə yazıldı" söyləyən Prezident İlham Əliyevin sözlərini tarix və zaman da təsdiqlədi. 1990-cı ildə imperiyanın törətdiyi 20 Yanvar hadisələrini pisləyən Ulu Öndərin Azərbaycanın Mosvadakı nümayəndəliyindəki çıxışını vətəndaşlıq borcu, kommunst rejiminə qarşı etiraz, siyasi qətiyyət adlandıran Prezident İlham Əliyev müdrik siyasətçi Heydər Əliyevin Naxçıvandakı fəaliyyətini müstəqilliyə gedən yolun başlanğıcı adlandırır: "Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını dövlət bayrağı elan etmişdir və atılmış digər addımlar ona xalqın məhəbbətini daha da artırmışdır. Bununla bərabər, o vaxt Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat cütlüyü xalqın inamını tamamilə itirmişdi. Onların antimilli siyasəti xalqda böyük hiddət doğururdu. Bacarıqsızlıq, qeyri-peşəkarlıq nəticəsində ölkə demək olar ki, idarəolunmaz vəziyyətə düşmüşdü. Ölkəmizi xaos, anarxiya bürümüşdü, qeyri-qanuni silahlı birləşmələr küçələrdə əli silahlı gəzirdilər, insanları incidirdilər. O illərdə ölkəmizi kütləvi rüşvətxorluq bürümüşdü. Torpaqlarımızın işğal altına düşməsi, iqtisadi böhran, sənaye böhranı, hərbi böhran demək olar ki, ölkəmizin gələcək müstəqil həyatına böyük təhlükə yaradırdı. Belə olan halda əlbəttə ki, xalq öz ümidini Heydər Əliyevə bağlamışdı".

## "Mən həyatımdan keçərəm, Naxçıvanı Azərbaycandan ayırmaram"

Ulu Öndərin Naxçıvandakı fəaliyyəti çox zəngin, ağır və eyni zamanda, çox şərəfli bir dövrü əhatə edir. Uzaqgörən siyasətçinin Naxçıvandakı fəaliyyəti müstəqilliyə gedən yolda əsas rol oynamışdır. 17 noyabr 1990- cı ildə keçirilən Naxçıvan MR Ali Məclisinin sessiyasınv ağsaqqal kimi sədrlik edən, Naxçıvan MSSR-nin adının dəyişdirilməsi, dövlət atributları sayılan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpası, himn və gerbi üçün müsabiqə keçirilməsi barədə təşəbbüs irəli sürən uzaqgörən siyasətçi yaxşı bilirdi ki, azadlıq, sərbəstlik olmayan yerdə inkişaf, yenilik nəinki çətindir, hətta mümkünsüzdür. Ali Məclisə sədrliyi dövründə daha əhəmiyyətli islahatların həllinə nail olan Ulu Öndər Azərbaycanın süverenliyini təsdiqləyən məsələlərin həllini sürətləndirdi. 20 Yanvar faciəsinə siyasi qiymət verilməsini, günahkarların cəzalandırılmasını qəti tələb etdi. Kremldə baş verən oyunlardan xəbərdar olan siyasətçi "İttifaq müqaviləsini" Qorbaçovun xalqları aldatmaq cəhdinin siyasi təzahürü hesab edərək ona qəti etirazını bildirdi. "Yenidənqurma" oyununun pərdəarxası məqsədini, onun təhlükəli nəticələrini də uzaqgörən siyasəti ilə aydın dərk edirdi. O "nəticə" ki, Azərbaycana Dağlıq Qarabağ boyda ürək ağrısı, əzab-əziyyət, qaçqın, şəhid sözlərini "bəxş etdi". Yalan, saxta ideyalar əsasında formalaşan və xalqları 70 ildən artıq əsarətdə saxlayan kommunist partiyasına etirazını KP sıralarından istefa verməklə bildirən Ulu Öndər vurğulayırdı ki, çoxpartiyalılıq olmayan cəmiyyətdə demokratiyadan, inkişafdan söhbət gedə bilməz. Ulu Öndərin Naxçıvandakı ən böyük xidmətlərindən biri, insanlarda milli təfəkkür və məfkurənin formalaşdırılması idi. Diaspor fəaliyyətinin təməlini qoyan 31 dekabr- Dünya Azərbaycan türklərinin milli həmrəylik və birliyi barədə qərar qəbul olundu. Əhəmiyyətinə görə daha böyük önəm daşıyan xidmətlərindən biri də 150 ildən artıq bir müddətdə "sərhədlərimizi qoruyan" SSRİ-nin 41-ci sərhəd dəstəsinin və 75 saylı mexanikləşdirilmiş moto-atıcı diviziyanın muxtar respublikanın ərazisindən çıxarılması barədə qərarın qəbulu oldu. Azərbaycanda "qızıl ordu" hissələrinin qaldığı vaxtda Naxçıvanda belə bir cəsarətli addımın atılması, rus ordusuna məxsus silah- sursatın, əmlakın, hərbi texnikanın yeni yaradılan Milli Orduya və Azərbaycanın I Sərhəd Dəstəsinə təhvil verilməsi yalnız düşünülmüş, ağıllı siyasətin nəticəsində mümkün ola bilərdi. Naxçıvanın ermənilər tərəfindən işğalının qarşısının alınmasına yönəldilmiş Qars müqaviləsinin təzələnməsi isə keçmişimizdən bu günümüzə ərməğan idi. Blokadada qalan naxçıvanlıların çətin vəziyyətdən çıxması üçün qonşu İran və Türkiyə ilə əməkdaşlıq gücləndi, hər iki dövlətdən muxtar respublikaya ərzaq , sənaye malları ən başlıcası isə enerji verildi. Türkiyə ilə əlaqələrin möhkəmləndirilməsi üçün "Ümid" körpüsü salındı. Paytaxt Bakı ilə yeganə nəqliyyat yolunun intensiv fəaliyyəti üçün geniş imkanlara malik hava limanı, Bakıda Naxçıvan nümayəndəliyi açıldı. Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. AXC-Müsavat iqtidarındakı bəylərin "unitar dövlətdə muxtariyyat ola bilməz" kimi səhv ideyalarına Ulu Öndər "Mən həyatımdan keçərəm, Naxçıvanı Azərbaycandan ayırmaram" sözləri və Qars müqaviləsini təzələməklə cavab verdi. Təcrübəli dövlət xadimi Heydər Əliyev yaxşı bilirdi ki, Naxçıvanın muxtariyyatının ləğv olunması bu qədim Azərbaycan torpağının itirilməsi demək idi. Ulu öndər Ali Məclisin Sədri vəzifəsinin icrasına başlayandan cəmi 4 gün sonra - 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul edib. Bu qərar Naxçıvanın müdafiəsinin gücləndirilməsi istiqamətində atılan ilk addım oldu. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların muxtar respublikada saxlanılması təmin olunub.

Əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və Ulu Öndərə olan sonsuz inamı nəticəsində muxtar respublikada ilk milli ordu birləşmələri yaradılıb, Naxçıvanın müdafiə potensialı yaxşılaşdırılıb, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası ilk dəfə məhz Naxçıvanda qoyulub.Bir sözlə, ulu öndər sentyabrın 3-də xilaskarlıq missiyasını öz üzərinə götürdü: "...İndi Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə nəinki deputatların, binanın qarşısına, ətrafına toplaşan naxçıvanlıların qoyduqları vəzifənin ifasından geri çəkilsəm, bu, xalqın ağır günündə qaçmaq deməkdir... Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini, yəqin ki, indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".

## Xalqın arzu və istəklərini reallaşdıran Yeni Azərbaycan Partiyası Naxçıvanda yaradılıb

1992-ci il noyabrın 21-də Naxçıvanda ölkəmizin ictimai-siyasi həyatı, ümumilikdə isə müstəqil Azərbaycanın gələcəyi üçün mühüm rol oynayan Yeni Azərbaycan Partiyasının əsası qoyulub. Dövrün, zamanın çağırışlarına cavab vermək məqsədilə yaradılan Yeni Azərbaycan Partiyası xalqın arzu və istəklərinin reallaşdırılması üçün qısa zaman ərzində böyük nüfuz qazanıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü barədə deyib: "Azərbaycanın siyasi tarixində parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxartdı".

## Naxçıvandan başlanan müstəqillik yolu ölkə miqyasında davam etdirilib

O zaman Naxçıvanda Ulu Öndərin rəhbərliyi ilə məqsədyönlü işlər aparılsa da, ümumilikdə, ölkədə hakimiyyətdə olanların səriştəsizliyi, siyasi səbatsızlığı Azərbaycanı məhvə doğru sürükləyirdi. Torpaqlarımızın ard-arda işğal olunması, yaranmış gərgin ictimai-siyasi hadisələr 1993-cü il iyun ayının əvvəllərində özünün kulminasiya nöqtəsinə çatdı. Hakimiyyət böhranı bütün ölkəni cənginə aldı. Artıq Azərbaycan öz dövlət müstəqilliyini ikinci dəfə itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Vəziyyətin getdikcə ağırlaşdığını görən xalq yeganə ümid yeri kimi həmin vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan ulu öndər Heydər Əliyevə üz tutdu. Dahi şəxsiyyət xalqın çağırışlarına cavab verdi, onun nicatı uğrunda siyasi mücadiləyə başladı və 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıtmaqla respublikanı xaosdan, anarxiyadan, parçalanmaqdan, məhv olmaqdan xilas etdi. Bu hadisə Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi əbədi həkk olundu. Həmin gündən etibarən Ulu Öndərin müdrik daxili və xarici siyasəti nəticəsində 1991-ci il sentyabrın 3-dən Naxçıvandan başlanan müstəqillik yolu ölkə miqyasında davam etdirildi. Beləliklə, tarix üçün qısa zaman ərzində Azərbaycan mühüm nailiyyətlər qazandı.Heydər Əliyevin siyasi xəttinə sarsılmaz sədaqət Naxçıvan Muxtar Respublikasını çiçəklənən diyara çeviribNaxçıvan Muxtar Respublikasında da ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət yeni inkişaf erasının başlanmasına təkan verib. Ötən dövrdə Naxçıvan blokada şəraitində inkişafın əsl nümunəsini ortaya qoyaraq, Azərbaycanın sürətlə tərəqqi edən diyarına çevrilib. İndi Naxçıvanın çox böyük müdafiə potensialı, dayanıqlı iqtisadiyyatı var. Bu gün mühüm enerji potensialına malik Naxçıvan, həm də dünyaya əsrarəngiz turizm potensialı olan bir diyar kimi qapılarını açır. Hər il bu qədim diyara dünyanın müxtəlif ölkələrindən çoxsaylı turistlər gəlir, burada müxtəlif beynəlxalq tədbirlər keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ötən 15 il ərzində muxtar respublikaya 14 dəfə səfərə gəlməsi və 135-dən çox müxtəlif təyinatlı obyektin açılışında iştirak etməsi də Naxçıvanın sürətli sosial-iqtisadi inkişafının bariz nümunəsidir. Prezident İlham Əliyev muxtar respublikaya son səfərində görülən genişmiqyaslı işlərin dövlətimizin vətəndaşına göstərdiyi böyük qayğının ifadəsi olduğunu vurğulayaraq deyib: "...Burada aparılan işlər çox yüksək qiymətə layiqdir, çox böyük zəhmət, çox böyük məhəbbət tələb edir. Görürəm ki, bütün işlər böyük məhəbbətlə, böyük zövqlə görülür ki, insanlar üçün yaxşı şərait yaradılsın, Naxçıvan Muxtar Respublikası bundan sonra da uğurla inkişaf etsin"

## Xilaskar missiyalı qayıdış

Ulu öndərin ikinci dəfə siyasi hakimiyyətə gəlişi nəinki Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi. Xalq ən ağır günlərini yaşadığı bir zamanda sevimli oğlunu, dahi şəxsiyyət Heydər Əliyevi ölkəni idarə etməyə çağırdı. Bu təkidli çağırışın arxasında sonsuz xalq etimadı, millətin məhəbbəti və inamı dayanırdı. Lakin onun birinci hakimiyyəti dövründəki abad Azərbaycandan heç nə qalmamışdı. Ümummilli Liderin 1993-cü il iyunun 15-də Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı xalqın milli dövlətçiliyinə və sabahkı gününə inamını özünə qaytardı, ölkə həyatının bütün sahələrinə nüfuz etmiş böhran aradan qaldırıldı, Qarabağ cəbhəsindəki uğursuzluqların qarşısı alındı, ictimai-siyasi sabitlik, milli-mənəvi həmrəylik və vətəndaş sülhü təmin edildi, ən başlıcası isə itirilməkdə olan dövlət müstəqilliyi qorunub saxlanıldı. Yaxın keçmişimizdə baş verən hadisələrə qiymət verməyi bacaran hər bir insan dərk edir ki, Heydər Əliyev qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almağa həyatını təhlükəyə atmaqla, ölümündən çəkinməyərək nail oldu. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ümummilli Liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində ölkəmiz müstəqilliyini itirmək, parçalanmaq, vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan neft müqaviləsinin imzalanması müstəqil Azərbaycan dövlətinin beynəlxalq arenada strateji məhiyyət kəsb edən möhtəşəm qələbəsi idi. 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu ali sənəd Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasında yeni mərhələ açdı. 1998-ci ildə şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv olundu. Heydər Əliyev üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində azadlıq, demokratiya, iqtisadi tərəqqi, sosial ədalət və rifah dururdu. Hakimiyyətin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ümummilli Liderin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir. Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Dahi Şəxsiyyətin adı ilə bağlıdır. 1998-ci il oktyabrın 11-də Ulu Öndər yenidən yekdilliklə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu, Ümummilli Liderə olan sonsuz etimadı, məhəbbəti, inamı bir daha sübut edirdi. Heydər Əliyevin fəaliyyətinin 1993-2003-cü illəri bir ömrün qızıl salnaməsidir. Ulu Öndər həmin dövrdə Azərbaycanı yalnız parçalanmaqdan, dövlət çevrilişlərindən, özbaşınalıqlardan xilas etmədi, həm də xalqımıza yeni, firavan, ildən-ilə gözəlləşən bir həyat, müstəqilliyi daha da möhkəmləndirilmiş Azərbaycanı bəxş etdi.



*Ulu öndərin ikinci dəfə siyasi hakimiyyətə gəlişi nəinki Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi.*

## İlham Əliyev və siyasi varisliyin təntənəsi

Bəli, xalqın irəlidə - Ulu Öndərdən sonra taleyini etibar etmək istədiyi lider yalnız İlham Əliyev idi. Prezident İlham Əliyev müxtəlif dövlətlərin siyasilərinin çeşidli mülahizələrlə müşayiət olunan proseslərdə, tez-tez dəyişən olayların çevrəsində dünya şöhrətli atasının bütün fərdi və ideoloji qənaətlərini onunla birgə yaşayırdı. Ümummilli liderin ən layiqli varisi İlham Əliyev ona görə güclü idi ki, müstəqil Azərbaycan dövlətinə rəhbərlik estafetini qəbul edərək böyük siyasətə gəlişi Üummilli Lider Heydər Əliyevin siyasi, ictimai, əxlaqi məfkurəsi və mədəniyyəti üzərində formalaşmışdı. Belə bir tarixi şəraitdə Ümummilli Lider Heydər Əliyev 2003-cü ilin prezident seçkilərinin həlledici dövründə canından artıq sevdiyi xalqına müraciətlə bildirdi: "Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bəli, 19 il prezidentlik fəaliyyəti müddətində Prezident İlham Əliyev ölkə daxilində və xarici aləmdə məhz həmin siyasətin daşıyıcısı və davamçısı kimi qəbul edilir. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən ötən müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Şübhəsiz, sosial-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. O da həqiqətdir ki, Ulu Öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub.Ən əsası isə sentyabrın 27-dən başlayan, 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Azərbaycan xalqı öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Bu gün Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə - Ali Baş Komandana sahib olduğunu aşkar gördü. Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi.Prezident İlham Əliyev 19 ildə həyata keçirdiyi siyasətin nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüzün birmənalı olaraq təsdiq edildi. "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".Ölkə Prezidenti İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi bu sözlər hər bir azərbaycanlında böyük sevinc və qürur hisləri yaratdı. Bu böyük qələbə eyni zamanda Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı. "Dağlıq Qarabağ Azərbaycan torpağı, beynəlxalq səviyyədə tanınan ərazimiz olmaqla yanaşı, ədalət məsələsidir, Azərbaycanın milli qürur məsələsidir",-deyən Prezidentimizə olan inamı, sevgini birə beş artırdı. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ulu Öndərin Prezidentimiz İlham Əliyev haqqında dediyi bu fikirlərin hər keçən gün öz təsdiqini tapdığının, hər bir azərbaycanlının Prezidenti olduğunun şahidi olur.Bütün bu kimi əhəmiyyətli amillər isə həm də o deməkdir ki, müqəddəs, sarsılmaz və qüdrətli dövlətimiz etibarlı əllərdədir. Təməli hələ 1993-cü ildə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş xarici və daxili siyasət kursumuzun dəyişməz olduğu, bu siyasətin yalnız milli maraqlar çərçivəsində aparıldığı göz qabağındadır. İndi bu siyasət dövlət başçımız tərəfindən qloballaşan bəşəriyyətin tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir.Bu gün Azərbaycan Prezidenti İlham Əliyev atasından əxz etdiyi nadir şəxsiyyətlərə məxsus bu keyfiyyətləri şərəflə daşıyır və böyük əzmlə dövlət idarəçiliyinə tətbiq edir, tarixin yeni tələblərinə uyğun olaraq təkmilləşdirib inkişaf etdirir. Ulu Öndər Heydər Əliyevin bütün sahələrdə başlatdığı işlər sahəsində gördüyü nəhəng layihələri respublikamızın Prezidenti cənab İlham Əliyev layiqincə davam etdirir. Məqsəd isə birdir - Azərbaycan xalqının daha xoşbəxt və firavan yaşamasını təmin edilməsi, ölkəmzin adının ən yüksək zirvələrdə çəkilməsi. Bizlər də hər bir vətəndaş kimi inanırıq ki, Azərbaycanı, onun xalqını uğurlu daha gələcək gözləyir. Azərbaycanın dahi oğlunun əməlləri, müqəddəs ideyaları və arzuları xalqımızın qəlbində əbədiyyən yaşayacaq, yaşadılacaqdır!

Beləliklə, Ulu Öndər Heydər Əliyevin istər Ali Məclisin Sədri, istərsə də Azərbaycan Respublikasının rəhbəri kimi fəaliyyət göstərdiyi illər ölkəmizdə müstəqil dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi dövrü kimi yadda qalıb və bu, Azərbaycanın xilası və inkişafı epoxasıdır.

**RƏFİQƏ KAMALQIZI**



# Kreml separatçıları təbrik edən Zatulinin oyunbazlıqlarına son qoyacaqmı?

*Yaxud, müttəfiq ölkə olaraq Rusiya Federasiyası hansı addımları atmalıdır?*

***Sentyabrın 2-də Ermənistan və Qarabağ separatçıları növbəti dəfə öz "artsax" adlı kvazidövlətlərinin "ildönümünü" qeyd edirlər. Məhz bu tarix erməni millətçilərinin "miatsum" xislətləri fonunda Qarabağ münaqişəsinin əsasının qoymaqla qara səhifəyə düşüb, o cümlədən, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə qarşı qaldırılan iddiaların təməlini təşkil edir.***

Digər tərəfdən, o da sirr deyil ki, bu gün Azərbaycan dövlətinin və ərazi bütövlüyünün əleyhinə müxtəlif ölkələrdə çoxsaylı düşmən mövqeli insanlar erməni lobbisi ilə əlbir olaraq fəaliyyətlərini davam etdirirlər. Lakin təəssüf ki, bu gün həmin ölkələr sırasında müttəfiqlik münasibətində olanı da var, misal üçün Rusiya Federasiyası...

Məsələ ondadır ki, Rusiya Federasiyasının MDB ölkələri institutunun direktoru, Rusiya Dumasının deputatı Konstantin Zatulin Qarabağ separatçılarına yuxarıda qeyd edilən tarixlə bağlı "təbrik məktubu" göndərib və həmin məktub Rusiya Federasiyası Dumasının rəsmii blankı vasitəsi ilə hazırlanıb, imzalanıb (?!)

Məktubda erməni separatçı və quldurlarını təbrik edən Zatulin "respublika günü" münasibəti ilə və aşkar həyasızlıqla onlara dəstək göstərdiyini ifadə edib, əlavə olaraq, Rusiyada separatçılara etinasız olmayanların adından çıxış edib. Üstəlik, 33-34 il əvvəl əllərinə silah alaraq azərbaycanlıları doğma yurd-yuvalarından qovan terrorçulara haqq qazandırıb.

Təəssüf edilən isə budur ki, bu gün Rusiyanın müvafiq rəsmi siyasi dairələri Zatulin kimi bir ünsürün kirli əməllərinə heç bir reaksiya vermir. Və bizlər də ümid edirik ki, Azərbaycan XİN rusiyalı deputatın Azərbaycanın suverenliyinə qarşı göstərdiyi davranışını rəsmi şəkildə və qətiyyətlə pisləyəcək və eləcə də, Rusiya Federasiyası dumasına, habelə xarici işlər nazirliyinə həmin məsələnin araşdırılmasını tələb edəcək, Rusiyanın Azərbaycandakı səfirliyindən izahat tələb olunacaq. Belə ki, Azərbaycan Respublikasının müttəfiqi olaraq Rusiya Federasiyasının deputatları və rəsmiləri bu kimi halların yaşanmaması üçün artıq qəti və təxirəsalınmaz tədbirlər görməlidirlər.

Qeyd edək ki, Azərbaycan 44 günlük müharibə dövründə öz ərazilərini düşmən işğalından azad edərkən Konstantin Zatulun və onun kimi bir çox rusiyalı politoloqlar Ermənistana açıq-aşkar dəstəklərini nümayiş etdirirdilər. Halbuki, məhz həmin ərəfələrdə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu vurğulamışdı. Bu baxımdan, bir ekstremist düşüncəli deputatın rəsmi məktub vasitəsi ilə separatçıları təbrik etməsinə rəğmən, yerdə qalan mövcud problemlərin tənzimlənməsində önəmli vasitəçi rolu oynayan Rusiyanın diplomatik strukturlarının həmin əmələ susqun qalmaları təəccüb və təəssüf hissləri doğurur. Eyni zamanda, Zatulinin bu əməli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında imzalanmış 40 bəndlik Müttəfiqlik Sazişinin tələblərinə cavab vermir və münbit, inkişaf edən ikitərəfli dostluq münasibətlərinə ciddi xələl vurur.

**Rövşən RƏSULOV**

FOTOFAKT



ГОСУДАРСТВЕННАЯ ДУМА
ФЕДЕРАЛЬНОГО СОБРАНИЯ РОССИЙСКОЙ ФЕДЕРАЦИИ
ВОСЬМОГО СОЗЫВА

ДЕПУТАТ
ГОСУДАРСТВЕННОЙ ДУМЫ

1 сентября 2022г. №

**Властям и народу Республики Арцах (Нагорно-Карабахской Республики)**

Поздравляю Вас с Днем Республики. Хочу уверить Вас в том, что все неравнодушные люди в России болеют душой за мир и благополучие в Нагорном Карабахе. Пройдя через многие войны плечом к плечу с уроженцами Нагорного Карабаха, участвуя сегодня в специальной военной операции на Украине, мы остро чувствуем потребность в мире, основанном на справедливости. Люди, взявшие в прошлые годы в руки оружие, чтобы защитить свою честь и достоинство, имеют полное право на самоопределение. Молю Бога, чтобы все это понимали и относились к людям Нагорного Карабаха с уважением.

Желаю Вам и республике мира, счастья и процветания.

**Депутат Государственной Думы ФС Российской Федерации 1, 4, 5, 7 и 8 созывов, директор Института стран СНГ** **К.Ф. Затулин**

# Ümummilli Liderin iradəsi ilə qəbul olunmuş qərarlar müstəqillik tariximizin ən parlaq səhifələridir



**Həbib Misirov**
**YAP Kəlbəcər rayon təşkilatının sədri**

Ötən əsrin sonlarına doğru Sovet İttifaqının süquta uğraması ictimai-siyasi vəziyyəti ağırlaşdırmışdı. Həmin dövrdə cərəyan edən ölkədaxili və regional siyasi proseslər Azərbaycanı da uçurumun bir addımlığına gətirib çıxarmış, Ermənistanın əsassız torpaq iddialarına rəvac vermişdi. Ölkədən təcrid olunmuş, blokada şəraitində yaşayan Naxçıvan isə taleyin ümidinə buraxılmışdı. Yaranmış vəziyyətdən istifadə edən Ermənistan siyasi və hərbi təzyiqlərini getdikcə artırırdı. Vəziyyətin bu qədər gərgin olmasına baxmayaraq, Naxçıvanda əhali bütün sahələrdə çətinliklərə müqavimət göstərir, muxtar respublikanın ərazi bütövlüyünü qorumaq üçün mərdliklə mübarizə aparırdı. Bu cür çətin, mürəkkəb və məsuliyyətli məqamda ulu öndərimiz Heydər Əliyev kimi böyük və zəngin həyat məktəbi keçmiş təcrübəli dövlət xadiminin Azərbaycana qayıdışı, 1990-cı il iyulun 22-də Naxçıvana gəlməsi böyük sevinclə qarşılandı.

Ümummilli Liderin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi isə Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik tarixi hadisə idi. Dünyanın iki nəhəng dövlətindən biri kimi tanınan Sovet İttifaqının rəhbərlərindən biri olmuş, uzun illər Azərbaycan Respublikasına bacarıqla rəhbərlik etmiş Heydər Əliyevin Ali Məclisin Sədri seçilməsi milli dövlətçilik tariximizin ən mühüm hadisəsi, xalqımızın itməkdə olan ümidlərinin dirçəlməsi və gələcəyə inamının artması baxımından möhtəşəm dönüş idi.

"Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. ...Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm". Ulu öndər Heydər Əliyev 1991-ci il sentyabrın 3-dən etibarən məhz bu fikirlərin işığında öz xilaskarlıq missiyasını həyata keçirib, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi fəaliyyəti dövründə - qısa müddət ərzində neçə-neçə onilliklərə sığmayan böyük işlər görüb.

Ali Məclisin Sədri kimi yorulmaq bilmədən çalışan Ümummilli Liderimiz düşmən təcavüzünə məruz qalan, blokada şəraitində yaşayan Naxçıvanın, ilk növbədə, müdafiə qabiliyyətini gücləndirib. Muxtar respublikanın düşmən hücumundan və sosial-iqtisadi böhrandan xilası istiqamətində mühüm qərarlar qəbul edən dahi rəhbər digər tərəfdən Azərbaycanı müstəqil, xalqımızı firavan görmək istəyirdi. Ümummilli liderimiz Heydər Əliyevin Ali Məclisin Sədri olarkən dünya azərbaycanlılarını bir ideya ətrafında - Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləməsi də bu istəkdən, bu arzudan irəli gəlirdi.

1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyası da deputatların istəyi və böyük təkidi nəticəsində ümummilli lider Heydər Əliyevin sədrliyi ilə öz işinə başlamışdır. Həmin sessiyada Azərbaycanın müstəqilliyi və suverenliyi üçün böyük tarixi qərarlar qəbul edilmişdir. Belə ki, təcrübəli dövlət xadiminin təklifi ilə "sovet sosialist" sözləri muxtar respublikanın adından çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı 70 ildən sonra ilk dəfə Naxçıvan parlamentində qaldırılmış, Azərbaycanın Ali Soveti qarşısında bu bayrağın rəsmi dövlət bayrağı kimi təsdiq edilməsi üçün vəsatət irəli sürülmüşdür. Naxçıvanda milli dövlətçiliyimizin bərpası yönündə atılan addımlar bununla məhdudlaşmamış, 1991-ci ildə Sovet İttifaqının saxlanması üçün keçirilən qanunsuz referendum boykot edilmişdir. Bütün bu proseslər onun göstəricisi idi ki, ulu öndərin qətiyyəti, hər şeydən üstün tutduğu milli dövlət maraqları, bu maraqların bərpası və qorunması istiqamətində atdığı tarixi addımlar müstəqilliyimizin bəhrələrini bizə hər gün daha da yaxınlaşdırmışdır. Bu addımlar ondan sonrakı dövrdə Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. O illərdə də ulu öndər qətiyyət, cəsarət, öz xalqına, öz millətinə nə qədər bağlı olduğunu göstərmişdir. Bir daha göstərmişdir ki, onun üçün dövlət maraqları, Azərbaycanın maraqları hər şeydən üstündür.

Bir sözlə deyə bilərik ki, Ümummilli lider Heydər Əliyevin fəaliyyəti, onun iradəsi ilə qəbul olunmuş qərarlar müstəqillik tariximizin ən parlaq səhifələridir.

## Naxçıvandan başlanan xilaskarlıq yolu



**Ayaz Quliyev**
**YAP Xızı rayon təşkilatının sədri**

Qüdrətli Azərbaycan dövlətinin qurucusu, xalqımızın və dövlətimizin xilaskarı, ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətləri misilsizdir. Bu xidmətlərdən biri də Azərbaycan dövlətçiliyinin xilası və ölkəmizin gerçək müstəqilliyinin təmin olunmasıdır. Ötən əsrin 90-cı illərinin əvvəlində Azərbaycanın yenidən öz dövlət müstəqilliyinə qovuşmaq imkanı yarandı. Lakin hakimiyyət uğrunda gedən çəkişmələr, ölkədə mövcud olan siyasi hərc-mərclik, xaricdən təhdidlər və təcavüzkar erməni silahlı birləşmələri tərəfindən torpaqlarımızın işğal olunması Azərbaycanı olduqca çətin duruma salmışdı. Çox mürəkkəb situasiya qarşısında qalan Azərbaycan yenicə əldə etdiyi dövlət müstəqilliyini itirə bilərdi. Həmin dövrdə blokada şəraitində qalan Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi durumu olduqca acınacaqlı vəziyyətdə idi. Heç bir idarəçilik bacarığı olmayan o vaxtki hakimiyyətin yarıtmaz siyasəti Naxçıvanın durumunu daha da ağırlaşdırmış, olduqca mürəkkəb vəziyyətə gətirib çıxarmışdı. Məhz 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən ulu öndər Heydər Əliyevin gərgin fəaliyyəti və yüksək bacarığı sayəsində Naxçıvanda sabitlik təmin edildi və həyat öz axarına düşdü. Muxtar respublikada sosial-iqtisadi vəziyyət yaxşılaşmağa başladı. O dövrə nəzər saldıqda bu proseslərin milli dövlətçilik ənənələrinin bərpası baxımından da xüsusi əhəmiyyətə malik olduğu görə bilərik. Belə ki, bu istiqamətdə Muxtar Respublikanın dövlət rəmzləri bərpa edildi, milliləşdirmə siyasəti uğurla həyata keçirildi.17 noyabr 1990-cı il tarixində Naxçıvan Ali Məclisinin I sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımızın qaldırılması, Naxçıvan MSSR adından "Sovet" və "Sosialist" sözləri çıxarılması kimi tarixi qərarların qəbul edilməsi və icra olunması SSRİ-nin mövcud olduğu bir dövrdə yüksək siyasi səriştə və cəsarət tələb edirdi ki, bunu da ulu öndər Heydər Əliyev nümayiş etdirdi. Həmçinin, Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Sovet ordusu, əsgəri birlikləri Naxçıvan MR ərazisindən çıxarıldı. Ulu öndər Heydər Əliyev eyni zamanda milli ideoloji məsələləri önə çəkərək bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirdi və tarixi qərarlar qəbul etdi.Ümummilli Liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Azərbaycan xalqının taleyində olduqca böyük tarixi əhəmiyyətə malik olan hadisədir. Naxçıvandan başlanan xilaskarlıq yolu Ölkəmizin şanlı tarixində yeni səhifə açaraq, doğma Azərbaycanımızın işıqlı gələcəyini təmin etdi.

# Hicab məsələsi

***İndi bəzi geyimlər var ki, möhkəm dəbdədir. Məsələn, buddan aşağı yırtıq-yırtıq şalvarlar, beldən bir qarış aşağı ətəklər, şortlar, beldən bir qarış yuxarı köynəklər, hərəsi bir tay corablar və sair... Sual oluna bilər ki, hə, nə olsun, hər dövrün bir tələbi, bir dəbi var da. Nə olsun ki? Adamın bir azca dünyagörüşü olar ey. Hər geyimi söz eləməz ki... Adam bir az müasir olar da, hər geyimə bir qulp qoymaz ki...***




Nə deyirəm ki, olsun da. Kim nə istəyir onu da edir, qarşısına çıxan var məgər? Nə məsləhətdi, onu geyinir. Belə götürəndə bizə nə var axı. Yırtıq şalvar geyinən özü bilər. Yox kimi ətək, köynək geyinən də özü bilər.

Lakin maraqlı bir məsələ var ki, indi bəzi hallarda artıq hicab da dəbə çevrilib. Yəni kənardan göründüyü kimi, bəzi hicablılar var ki, onların bu geyimi dini inanclar xətrinə deyil, dəb xətrinə geyindiyi bəs-bəlli ortalıqdadır. Məsələn, bu günlərdə gənc bir qadınla rastlaşdım. Başı qaydalara uyğun bağlı idi. Lakin yaylığının ətəyi qısa olduğu üçün sinəsi bayırda idi. Uzun paltar geyinmişdi, ayaqlarında corab yox idi. Paltarın qolları da dirsəkdən azca aşağıda bitirdi. O günü də başqa bir hicablı xanımla qarşılaşdım. Onun da başı örtülü idi. Lakin örtüyün altından saçları da görünməkdə idi. Əynindəki paltarı da sən deyən geniş deyildi. Bədən cizgilərini müəyyən qədər bəlli edirdi.

Lap əvvəlki günlərdə isə başqa bir hicablı ilə qarşılaşmışdım. Əynində şalvar var idi. Yuxarı hissəsi çox dar idi, boyu isə topuqdan xeyli yuxarıda bitirdi. Şalvarın üzərinə düşən köynəyi çox da uzun olmadığından şalvarın yuxarı hissədə yaratdığı qüsuru ört-basdır edə bilmirdi.

Deyirsiniz ki, dəbdir, yaxşı edirik belə geyinirik. Mən də nə deyirəm ki? Sadəcə gördüklərimi deyirəm və əcəb edirəm. Heç kimin ixtiyarı yoxdur ki, gördüklərimiz haqqında danışmamağımızı istəsin. Danışırıq, danışacağıq da.

Lakin mənim üçün indi ən çox maraqlı olan bu "müasir" hicablılardır. O səbəbdən də gördüklərim haqqında söhbət açıram ki, bəlkə bilmədiyim məqamlar var. Bəlkə kimsə qalxıb deyəcək ki, bəs sən elə bilirdin ki, digər geyimlər müasirləşəcək, hicab yox? Bəlkə kimsə yerindən qalxıb deyəcək ki, hicablı kəsin bu cür geyinməsində bir qəbahət yoxdur. Bəlkə kimsə yerindən qalxıb deyəcək ki, o hicablı düz edir elə geyinir, siz səhv edib onun haqqında danışırsınız.

Onda mən də deyərdim ki, ay hicablı xanım, nə üçün özünə əziyyət verib bu isti havada başını möhkəm-möhkəm bağlayıb, ayaqlarını, qollarını açırsan, məqsədin nədir? Deyərəm ki, şalvarı dar geyinib başı örtməyin mənasını xahiş edirəm mənə də izah edin. Bir də ki, yaylığın altından çıxan saçların hicab qaydalarına uyğunluğu varmı, bunu bilmək istərdim.

Yoxsa, dəb də azaddır, insanlar da. Kim nə geyinir geyinsin, nə deyirik ki. Hər kəsin ağlı-huşu var. Evində valideyni var, qapısından çıxanda görür. Bir də göydə Allahı var, o da görür. Allah bizləri qorusun, ağlımızdan, huşumuzdan, dərrakəmizdən muğayat olsun. Allah ürəklərə normal geyinmək üçün azacıq mərhəmət salsın, Amin!

***Mətanət MƏMMƏDOVA***

---

# "Cənubi Qafqazdakı bütün proseslərin hərəkətverici qüvvəsi rolunda Azərbaycan iştirak edir"

***"2020- ci ilin sentyabr ayında başlanan Vətən müharibəsindən sonra Azərbaycanın həyata keçirdiyi düşünülmüş nəticə yönümlü siyasətin yekununda Qarabağdakı speratçı qüvvələr və məcburi köçürülmüş erməni əhali burada yaşamaq istəmir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Anar Əliyev deyib.***



Onun sözlərinə görə, ermənilər gözəl dərk edirlər ki, nəinki Qarabağda və Azərbaycanın sərhədləri daxilində, bu sərhədlərdən kənarda da, Cənubi Qafqazda baş verən proseslər də Azərbaycanın maraqlarına uyğun şəkildə həyata keçirilir: "Cənubi Qafqazda baş verən bütün proseslərin hərəkətverici qüvvəsi rolunda Azərbaycan iştirak edir. Ermənilər Azərbaycan ərazisində qala bilməyəcəklərini yaxşı dərk edirlər. Mümkün olduğu halda Azərbaycandan çıxmaq və ya başqa bir ölkəyə köçmək istəyirlər. 31 avqust tarixində keçirilən görüş zamanı Azərbaycan prezidentinin irəli sürdüyü və diktə etdiyi şərtlər, nəinki Ermənistan, həm də beynəlxalq ictimaiyyət və təşkilatlar tərəfindən qəbul edilməsi onu göstərir ki, Dağlıq Qarabağla bağlı termin müzakirə mövzusu deyil. Qarabağda ermənilərə hər hansı status verilməsi ilə bağlı məsələ artıq nəinki Ermənistanın, beynəlxalq təşkilatlarında gündəliyindən çıxarılıb. ATƏT-in Minsk qrupu kimi bir təşkilat tarixə qovuşub. Bunu dərk edən Qarabağdakı speratçı erməni qüvvələr və eyni zamanda, Ermənistan hakimiyyətinə qarşı olan revanşist qüvvələr, erməni terror təşkilatları, erməni Qriqoryan kilsəsi və dünyada Qarabağda ərazi məsələsini böyük bir biznesə çevirərək hər il milyonlarla gəlir əldə edən erməni diaspor təşkilatları mümkün bütün variantları istifadə etməklə ya Qarabağdakı ermənilərə statusun əldə edilməsi, ya da problemin uzadılmasına çalışırlar".

**POLİTOLOQ AÇIQLADI**



Anar Əliyev sözlərinə əlavə edərək bildirib ki, Azərbaycan Vətən müharibəsində qələbə əldə etməsi ilə Ermənsitanın Azərbaycana qarşı ərazi iddialarını və işğal faktorunu aradan qaldırmaqla yanaşı, uzun illərə dayanan erməni Qriqoryan kilsəsinin, erməni diapor təşkilatlarının və onların arxasında dayanan böyük dünya güclərinin Böyük Ermənistan dövləti xülyası xəyallarının üstündən xətt çəkildi: "Azərbaycan böyük qərb imperiyalarının, Fransanın neo- imperializm siyasərtinin ermənilər üzərindən bütün bölgəni nəzarətdə saxlamaq və bölgə dövlətlərinə təsir etmək imkanlarını əlindən almış oldu. Buna görə də bundan sonra Qarabağda ermənilər yalnız Azərbaycan qanunvericiliyi şərtləri daxilində Azərbaycan vətəndaşlığını qəbul etməklə Azərbaycan bayrağı altında yaşaya bilərlər. Onlara hər hansı status verilməsi müzakirə mövzusu deyil. Bu, Azərbaycanın mövcud qanunvericiliyinə ziddir. Az bir kəsim təşkil edən erməni icmasına status verilməsi Azərbaycan siyasətinin istiqamətini və hədəflərini təşkil etmir. Azərbaycan unitar dövlətdir. Çoxlu sayda Azərbaycanda etnik qruplar yaşayır. Azərbaycan bütün vətəndaşların hüquq və təhlükəsizliyini necə təmin edibsə, Azərbaycan qanunları ilə yaşayacaq erməni əsilli Azərbaycan vətəndaşlarının da hüquq və təhlükəsizliyi təmin ediləcək".

***Qönçə Quliyeva***

---

# "Sülhməramlılar Qarabağda Azərbaycanın ərazi bütövlüyünün bərpasına məsul deyillər"



***"Rusiya sülhməramlılarının missiyası 2020-ci ilin 10 noyabr uçtərəfli Moskva razılaşmasının 5-ci bəndində müəyyən edilib. Üçtərəfli razılaşmanın məlum şərtinə görə sülhməramlıların vəzifəsi atəşkəs rejiminin şərtlərinin riayət olunmasına nəzarət etmək və atəşkəs rejiminin pozulmasına yol verməməkdən ibarətdir". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.***

Onun sözlərinə görə, sülhməramlılar Qarabağda Azərbaycanın ərazi bütövlüyünün bərpasına məsul deyillər, hərçənd Rusiya dövləti özü Azərbaycanın adi çəkilən ərazidə dövlət suverenliyini qəbul edir və problemin ölkəmizin ərazi bütövlünü çərçivəsində həllinin tərəfdarıdır: "Üç tərəfli razılaşmanın indiyədək yerinə yetirilməyən müddəası erməni hərbi birləşmələrinin Azərbaycan ərazisini tərk etməməsidir. Ermənistan tərəfi bu birləşmələrin ona deyil, Qarabağdakı separatçı rejimə aid olduğunu bildirir. Bölgədə nəqliyyat-kommunikasiya xətlərinin açılması, alternativ Laçın yolu da daxil olmaqla tərəflərin qarşılıqlı razılığı əsasında həyata keçirilməlidir. Ermənistanla humanitar yönümlü münasibətlərinin həyata keçirilməsi uçun alternativ dəhlizin istifadəyə veriləcəyi ilə bağlı müddət razılaşmada öz əksini tapıb, bu 3 il müddətində olmalı idi. Dövlətimiz bu layihəni 2 ilə reallaşdırdı. Lakin Naxçıvanı Ermənistan ərazisindən keçməklə (Zəngəzur dəhlizi) Azərbaycanla birləşdirə biləcək məlum marşrutun istifadə veriləcəyi ilə bağlı layihənin reallaşdırılması üçün razılaşmada konkret müddət göstərilmədiyindən bu Ermənistana manevr etməyə, danışıqları uzatmağa imkan verir. Rusiya sülhməramlılarının hərəkətlərində razılaşmanın şərtlərindən kənara sapmalar varsa, rəsmi Bakı bu məsələyə diplomatik kanallar vasitəsilə münasibət bildirə, etiraz edə bilər".

***Gülyana***

# Brüssel görüşünün havası getməmiş...



## Ermənistanın baş naziri Nikol Paşinyan yenidən və niyə qudurdu?

Sonuncu Brüssel görüşündə əldə müəyyən olunmuş razılaşmalardan sonra Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağdakı separatçıları ”müstəqillik günü” münasibəti ilə təbrik etməsi, əslində, bir daha onu sübut edir ki, Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin 12 yanvar tarixində ölkə televiziyalarına verdiyi müsahibəsi zamanı irəli sürdüyü fikirləri bir daha özünü isbatlayır. SİTAT: ”Biz heç vaxt indiki hakimiyyətin xoş sözlərinə aldanmamalıyıq. Heç vaxt unutmamalıyıq ki, biz hansı qonşu ilə qonşuluqda yaşayırıq... Biz onu da bilməliyik ki, istənilən sülh müqaviləsi Ermənistan üçün, sadəcə, kağız parçası ola bilər... Biz istəyirik ki, müharibə dövrü başa çatsın, istəyirik ki, normal əlaqələr yaradılsın, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, nəhayət, tanısın. Biz bunu istəyirik. Amma əgər biz görsək ki, dediyim kimi, bizim üçün təhlükə var, o təhlükə elə yerindəcə məhv ediləcək...”.

### İlham Əliyevdən Paşinyana xatırlatma: ”Əgər biz görsək ki, dediyim kimi, bizim üçün təhlükə var, o təhlükə elə yerindəcə məhv ediləcək...”

Dövlət başçımız tərəfindən bəyan edilən bu fikirlər və eyni zamanda, Ermənistanın baş nazirinin qondarma ”artsax” ətrafında nümayiş etdirdiyi növbəti quduruğanlıq oyunbazlıqları artıq kifayət qədər qənaətə gəlməyə zəmin yaradır ki, düşmən əsla ağıl və dərrakə dilini anlamır və onun başı üzərindəki dəmir yumruq hər an onun üzərinə enə bilər və enəcək də! Yuxarıda da qeyd etdiyimiz kimi, Müzəffər Ali Baş Komandanın ”Amma əgər biz görsək ki, dediyim kimi, bizim üçün təhlükə var, o təhlükə elə yerindəcə məhv ediləcək...” xəbərdarlığı hər an, hər dəqiqə və hər saniyə gündəmdə qalmaqdadır!

Ancaq məsələ həm də ondadır ki, Paşinyan Qarabağ separatçılarına yalnız təbrik məktubu göndərməyib. O, həmin məktubunda ”ermənilərə yaşana biləcək ekzistensional təhlükələr”, habelə, Sumqayıt hadisələri, eləcə də ATƏT-in Minsk qrupu ətrafında da siyasi klounluq nümunələri sərgiləyib. Beləliklə, Ermənistanın baş naziri faktiki olaraq Ermənistanın Qarabağdakı separatizmə dəstək göstərməsi açıq-aydın özünü isbatlayıb. Ancaq Nikol Vovayeviç bir reallığı da unudub ki, əgər o, hətta Brüssel görüşündən çox az bir müddət keçməsinə rəğmən belə bir həyasız davranışlar nümayiş etdirirsə, o, ilk növbədə, tarixi Azərbaycan torpaqları üzərində qurulmuş saxta ”Ermənistan” adlı bir ”ölkəni” tabuta yerləşdirir və üzərinə qapaq qoyaraq onun mismarlanmasına geniş imkanlar yaradır, yəni dəfn prosesini sürətləndirir. Sual yaranır ki, bu faktlara səbəb olan daha nələrdir?

Nikol Vovayeviç 1987-ci ildə Qafanda, 1988-ci ildə Ağbaba mahalında, Zəngibasarda, Vedibasarda və s. yerlərdə ermənilərin azərbaycanlıların başlarına gətirdikləri qətliam və faciə faktlarını bilmirmi?

Ermənistanın baş naziri sakitləşmək bilmədən yazıb ki, ATƏT-in Minsk qrupunun ”Dağlıq Qarabağ münaqişəsini” həll etməliymiş, filan-behkəman (?!) Hansı Minsk qrupu? 30 il yalnız səfərlər edib işğal faktına göz yuman və havayıyeyən həmsədrlər ”saykasımı”? Bildiyimiz kimi, artıq nə münaqişə var, nə Minsk qrupu, nə də ”Dağlıq Qarabağ” anlayışı!

1988-90-cı illərdə Bakı, Gəncə, Sumqayıtda baş verən hadisələri həyasızcasına xatırlayan və məhz həmin hadisələrin ”miatsuma” (Qarabağın Azərbaycandan ayrılması tələbinə) səbəb olduğunu iddia edən Nikol tarixi Qərbi Azərbaycan torpaqlarında - 1987-ci ildə Qafanda, 1988-ci ildə Ağbaba mahalında, Zəngibasarda, Vedibasarda və s. yerlərdə ermənilərin azərbaycanlıların başlarına gətirdikləri qətliam və faciə faktlarını bilmirmi? Bilir!

Nikol Paşinyan Sumqayıt hadisələrinin başında SSRİ KQB-nin, eləcə də həmin məsələyə residivist cinayətkar - erməni Eduard Qriqoryanın cəlb edildiyini də bilmirmi? Əlbəttə ki, 100% bilir!

Vovayeviç iddia edir ki, Azərbaycanın Qarabağ regionunda yaşayan ermənilərin Ermənistanın (???!!!) dəstəyi ilə yaşamaq və s. hüquqları var. Bunu necə başa düşək, qonşularının ərazilərinə iddia edir, yoxsa siçan-pişik oyunu oynayır? Niyə onu da bildirmir ki, Qarabağdan qovulmuş azərbaycanlıların Xocalıya, Xankəndiyə, Xocavəndə geri dönmələri vacibdir? Yoxsa separatçı ermənilərin qaşları-gözləri bizimkilərdən qaradır???!!!

Bəli, Paşinyan yəqin bir zaman Xankəndidə işlətdiyi məlum ”nöqtəli” fikrinin onun və ermənilərin başına hansı NİDALI oyun açdığını da unutmayıb!

Sonda isə Prezident İlham Əliyevin daha bir növbəti bəyanatını xatırlatmaq istərdim. SİTAT: ”Erməni silahlı birləşmələrinin Azərbaycan ərazisində qalması tamamilə qəbuledilməzdir. Biz qalib ölkəyik, biz öz ərazi bütövlüyümüzü bərpa etmişik. Əgər Ermənistan Azərbaycan ərazisindən öz silahlı birləşmələrini çıxarmaq istəmirsə, onda bizə bunu açıq desin, biz də işimizi biləK..."

İlham Əliyevin proqnozları özünü növbəti dəfə sübut edir: ”Biz heç vaxt indiki hakimiyyətin xoş sözlərinə aldanmamalıyıq. Heç vaxt unutmamalıyıq ki, biz hansı qonşu ilə qonşuluqda yaşayırıq...”

Yaxud: ”Deyə bilərəm ki, Ermənistanda revanşist meyillər təkcə keçmiş hakimiyyət nümayəndələri tərəfindən yox, eyni zamanda, indiki hakimiyyət nümayəndələri tərəfindən özünü büruzə verir. Biz heç vaxt indiki hakimiyyətin xoş sözlərinə aldanmamalıyıq. Heç vaxt unutmamalıyıq ki, biz hansı qonşu ilə qonşuluqda yaşayırıq... Biz istəyirik ki, müharibə dövrü başa çatsın, istəyirik ki, normal əlaqələr yaradılsın, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, nəhayət, tanısın. Biz bunu istəyirik. Amma əgər biz görsək ki, dediyim kimi, bizim üçün təhlükə var, o təhlükə elə yerindəcə məhv ediləcək”.

Nikol Paşinyan İlham Əliyevin bu bəyanatlarını da yaxşı xatırlayır və ona görə də Brüsseldə, Moskvada, Soçidə büzülmüş və sudan çıxmış cücə kimi çiyinlərini qısıb nökər vəziyyətini alır. Amma İrəvana geri dönəndə 180 dərəcə çevrilərək quduzlaşır, qudurur və görünür, Qarabağ separatçılarına öz təbirincə məktub yollaması ilə özünü ”qəhrəman” kimi hiss edir.

Amma nahaq yerə - Azərbaycan Ordusu bircə işarəyə bənddir ki, ötən gün təbrik məktubu yazdığı kabinetində Azərbaycanın dövlət bayrağı asılsın! Belə davam edərsə, həmin gerçəklik özünü təsdiqləyəcək, mütləq təsdiqləyəcək!

***Rövşən RƏSULOV***

TƏRS BAXIŞ ÖZƏL

# Ermənistan Rusiyadan niyə uzaqlaşır?



**POLİTOLOQ AÇIQLADI**

***“Rusiya və Aİ-nın Qafqazda vasitəçilik yarışı artıq demək olar ki, açıq şəkildə gedir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Amid Əliyev deyib.***

Onun sözlərinə görə, 2021-ci ildən etibarən regionda gedən proseslərə aktiv qoşulan Aİ-nın bu istiqamətdə bir neçə məqsədi var: ”Birincisi, Aİ Rusiyaya qarşı aparılan hərbi kompaniya çərçivəsində onun Qafqazdakı mövqeyinin zəifləməsini və proseslərdən kənarda qalmasını istəyir. İkincisi, Aİ Azərbaycanla enerji sahəsindəki əməkdaşlığı inkişaf etdirmək və Avropanın Rusiyaya qaz asılılığını minimuma endirməkdir. Üçüncüsü, Aİ Azərbaycan arasında imzalanması gözlənilən sazişin artıq yekunlaşması və bununla da münasibətlərin daha strateji mərhələyə keçidini təmin etməkdir. Dördüncüsü, Aİ Ermənistana özünün maliyyə vasitələrindən istifadə edərək təzyiqi artırmaqla əldə olunmuş sülhün legitimləşməsini təmin etməyə çalışır. Məhz bu səbəbdən Aİ bu məsələlərdə daha aktiv olmağa vadar edir. Əvvəlki görüşlərdən fərqli olaraq bu dəfəki görüş ərəfəsində Rusiya narazılığı və qısqanclığı daha bariz şəkildə özünü büruzə etdi. Belə ki, Rusiya XİN sözçüsü Mariya Zaxarova bildirdi ki, Aİ Qafqazdakı aktivliyinin arxasında siyasi ambisiyalar dayanır. Rusiya prezidenti Putin isə bu günlərdə Ermənistanın keçmiş prezidenti olmuş Koçaryanı ad günü münasibətilə təbrik etdi və bununla da Paşinyana ciddi mesaj vermiş oldu. Bunun siyasi anlamı odur ki, Rusiya hər zaman Ermənistandakı daxili siyasi və sosial proseslərə aktiv şəkildə qoşularaq istənilən ssenarini yaza bilər. Nəzərə alsaq ki, Rusiya XİN rəhbəri də milliyətcə ermənilərə daha yaxın olduğu üçün bu məqamda onun da mövqeyi Rusiya prezidenti ilə üst-üstə düşür. Bundan əlavə, rus KİV -də erməni əsilli milyarderin Qarabağa köçməsi xəbəri də son günlərdə tirajlanır. Görünən odur ki, Rusiya Aİ-nın Qafqazdakı vasitəçilik missiyasını və məramlarını özünəuyğun şəkildə qəbul edir. Lakin burada bir məsələni xüsusi olaraq qeyd etmək lazımdır ki, rəsmi Moskva bu narazılığın səbəbini özündə axtarmalıdır. Çünki rəsmi sülhün qarantor rolunda çıxış edən Rusiya 10 noyabr Bəyanatının bütün bəndlərinin icrasına birbaşa cavabdehdir. Ən azından ona görə ki, bölgədə Rusiyaya məxsus olan SMQ xidmət aparır. Amma buna baxmayaraq, bu günə qədər Bəyanatın ən azından 3 maddəsi hələ də icra olunmamış qalır. Bu istiqamətdə isə Rusiya tərəfindən Ermənistana heç bir təhrikətmə və təzyiq göstərilmir. Belə olan halda təbii ki, Aİ bu məqamdan istifadə edərək moderatorluğu öz əlinə alır. Moskvanın etməli olduğu işi Brüssel tərəfindən həyata keçirilməsinin əsas səbəbkarı elə Moskvanın özüdür. Daha doğrusu, bu işlərin həyata keçməsini istəməyən rus siyasi, hərbi və diplomatik dairələridir. İndiki zamanda isə Rusiya həyəcanı və təşvişi başa düşüləndir. Kollektiv Qərbin Rusiyaya qarşı olduğu halda, Ermənistanın Rusiya siyasi oribitindən uzaqlaşdırılması siyasəti daha uğurlu görünə bilər. Ən azından buna Ermənistanin siyasi rəhbərliyi də maraqlıdır”. Politoloq sözlərinə əlavə edərək qeyd edib ki, son görüş isə hər zaman olduğu kimi, bu dəfə də Azərbaycanın üstünlüyü ilə müşahidə olundu. Bu dəfə də Azərbaycanın şərtləri əsas götürüldü, Ermənistanın manipulyasiya imkanlarının qarşısı alındı. Sərhəd məsələsi üzrə komissiyanın iclasının keçirilməsi, sülh sazişinin mətninin hazırlanması və növbəti görüşün vaxtının dəqiqləşdirilməsi kimi faktlar onu deməyə əsas verir ki, görüşdə üç tərəf iştirak etsə də, razılığa iki tərəf gəlmiş, üçüncü tərəf isə mövcud şərtlər qarşısında çıxılmaz vəziyyətdə qalmışdır. Bu dəfə də Azərbaycan öz prinsipiallığına uyğun olaraq növbəti strateji addımlarını atmış və növbəti məsələlər üzrə vacib konturları müəyyən etmişdir. İndi bir sual ortaya çıxır ki, baş verən bütün bu proseslərə Rusiya münasibəti bundan sonra necə olacaq? Növbəti Moskva görüşü olacaqmı? Onsuz da gərgin siyasi böhran yaşayan Ermənistanda daxili siyasi vəziyyət hansı istiqamətdə davam edəcək? Qərbin Ermənistandakı dayaqları RF qarşı dayana biləcəkmi? Bütün qeyd edilən bu sualların cavabı nə olursa-olsun Azərbaycan hər zaman qalib vəziyyətdə və diktə edən mövqedə qalmaqda davam edəcəkdir”.



***Qönçə Quliyeva***

# Müxalifət Əli Kərimlinin acınacaqlı gününə düşüb



***Son vaxtlar yeni reallıqlara uyğun yaranan demokratik şəraitdən geninə-boluna bəhrələnən müxalif düşüncəli insanlar yeni-yeni partiyalar yaradırlar. Elələri də var ki, qrant savaşında o qədər də pay ala bilmədiklərindən sədr müavinliyindən istefa verərək, yeni partiya yaratdıqlarını elan edirlər.***

Bu da el arasında deyildiyi kimi, "yağışdan sonra artan köbələk" -təsiri bağışlayır. Diqqətçəkən məqam ondan ibarətdir ki, yeni seçilən "sədr" isə siyasətin nə olduğunu belə anlamır. İctimai-siyasi proseslərə məişət məsələləri kimi yanaşıb, elə o tərzdə də münasibət bildirir. Elə ilk müsahibəsində və ya açıqlamasında özünü ifşa etməklə, adını siyasətdə uğursuzluğa düçar olanların siyahısına yazır. Hazırkı məqamda müxalifət düşərgəsində təmsil olunan partiya sədrlərinin böyük əksəriyyəti siyasətə gəlir mənbəyi kimi baxır. Sədrlik kreslosunu da, məhz buna görə tərk etmək istəmir. AXCP və Müsavat kimi partiya sədrləri xarici qüvvələrlə iş birliyinə getməklə, xarici qüvvələrdən və ya fondlardan maliyyə yardımları alıblar. Ancaq siyasətdə uğur qazana bilməyiblər. Çünki müxalifət başbilənlərindən birinin, bir zaman dediyi kimi, "pul qoyub, pul götürmək olar, amma pul qoyub, siyasətdə uğur əldə etmək olmaz". Beləlri haqqında çoxsaylı faktlar-sübutlar göstərmək olar. "Milli Şura"nın sədri Cəmil Həsənli, AXCP sədr Ə.Kərimlinin, Müsavat başqanı A.Hacılının, Müsavatın keçmiş başqanı İ.Qəmbərin siyasi fəaliyyətlərinə nəzər yetirdikdə, hər şeyin məlum olduğunu görmək olar. Bu məxluqlar az qala yaşlarının yarısını siyasətə qurban versələr də, qazandıqları ancaq xalqın ittihamı, tənqid və iradları olub. Ağa qara demək, xalqın sevincinə, hakimiyyətin apardığı uğurlu siyasətə qərəzli yanaşmaq onların həyat tərzidir.

### Uğursuzluq müxalifətin həyat tərzidir

Müxalifətin siyasi proseslərdə uğursuzluğa düçar olmasını şərtləndirən əsas amillərdən biri də, onların yanlış baxışlara malik olmaları və milli maraqlara zidd siyasət yürütmələridir. Bu baxımdan, bəzən o fikir vurğulanır ki, müxalifət elə AXCP sədri Əli Kərimlinin acınacaqlı vəziyyətinə bənzəyir. Düzdür, mövcud ağır vəziyyəti dəyişmək üçün müxalif partiyaların rəhbərliyinə yeni simalar və yeni qüvvələr gəlir. Bir növ şəxsləri bəxtlərini, yeni şanslarını yoxlamağa cəhd göstərənlər adlandırmaq olar. Amma nə yazıqlar ki, əksər hallarda o şəxslər şanssız olurlar, nəinki cəmiyyətdə, ümumilikdə, baş vurduqları siyasət aləmində hörmət və izzət sahibi ola bilmədiklərindən uğursuzluğa düçür olub, kor-peşman əski mövqelərinə qayıdırlar. Meydana siyasi reallıqları düzgün dərk edən və xaricdən asılılığı olmayan yeni gənc liderlər çıxmalıdır. Lakin bugünkü reallıqda müxalifət düşərgəsində bunu görmək və ya "yeni simaları" cəmiyyətə təqdim etmək mümkün deyil. Çünki siyasi arenaya çıxan yeni simalar indiki korlanmış müxalifət funksionerlərinin cərgəsində əriyərək, sıradan çıxır və ya elə onların bir tayı olurlar. Yenilik yalnız ikinci, üçüncü tip şəxslərin başqanlığa və ya kollegial orqanlara gətirilməsi deyil, bütövlükdə, ideologiya dəyişməli, müstəqil və demokratik idarəetmə sistemi qurulmalıdır. Hazırkı müxalifət liderlərinin və funksionerlərinin siyasi imici həddən artıq korlanmış durumdadır. Ümumiyyətlə, mövcud tarixi hadisələrə nəzər yetirdikdə, bir daha aydın olur ki, müxalifət düşərgəsində aydın düşüncəli, sağlam fikirli, açıq, demokratik mübarizə aparmaq gücündə və istəyində olan partiya sədrləri yoxdur. Bu da onların meydan təfəkküründən qurtula bilməməsi ilə bağlıdır. Nəzərə almaq lazımdır ki, məhz yarıtmaz fəaliyyətləri səbəbindən Azərbaycan dövləti bir illik hakimiyyətləri dönəmində ağır faciələr yaşadı. Torpaqlarımız erməni işğalına məruz qaldı, yeraltı-yerüstü sərvətlərimiz talan edilərək xaricə daşındı.

### Müsavat kimi AXCP-nin də dağılması qaçılmazdır

Bəllidir ki, AXC-Müsavat cütlüyü Ayaz Mütəllibovun hakimiyyətinin devrilməsi üçün Azərbaycan ərazilərini hərraca qoyulması və ermənilər tərəfindən işğal olunmasına şərait yaradılması siyasəti apardılar. Hətta öz məkrli planlarını həyata keçirilməsi üçün 20 Yanvar faciəsi və Xocalı soyqırımı kimi qanlı hadisələrdən istifadə edərək, zor gücünə hakimiyyətə yiyələnmək istiqamətində addımlar atmaqdan çəkinməmişdilər. İstəklərinə nail olduqdan sonra ölkəni uzun illər düzəldilməsi çətin olan faciələrə sürüklədilər. Bu gün də keçmişin ab-havası ilə yaşayırlar. Ancaq istəkləri əlçatmazdır. Çünki xalq qətiyyətlə onları rədd edir. Həm də ictimaiyyət onların siyasətdən zibilliyə atılması istəyindədir. Maraqlıdır, ictimai münasibətdən nəticə çıxarmaqdansa, hələ də müxtəlif pafoslu açıqlamaları, mesajları ilə gündəmdə qalmağa çalışırlar. Ancaq görünən ondan ibarətdir ki, uzun müddət haykүylərini davam etdirə bilməyəcəklər. Çünki müxalifət düşərgəsində yaşanan ciddi konfliktlər partiyaların arxivin astanasında olduqlarını deməyə əsas verir. Proseslərə əsasən, demək olar ki, hazırkı məqamda ən təlatümlü və narahat partiyalar AXCP, ADP, KAXCP və Müsavat partiyalarıdır. Müsavatda cərəyan edən hadisələr maraqlı nüansları ortaya çıxarır. Arif Hacılının başqanlığa gətirilməsindən sonra partiya daxilində qarşıdurmalar günbəgün artmaqdadır. A.Hacılının idarəçiliyindən narazı olan qruplar açıq müstəvidə mübarizəyə başlayaraq, situasiyanı öz xeyirlərinə dəyişdirməyə çalışırlar. Bundan istifadə edən AXCP sədri Ə. Kərimli yaranmış vəziyyətdən səmərəli istifadə etməyə çalışır. Yəni Ə.Kərimli ənənəvi məkrli planına uyğun olaraq Müsavatın tamimilə sıradan çıxarılmasına ümid bəsləyir. Lakin AXCP daxildə də ciddi təlatümlər baş verdiyindən, Ə.Kərimlinin arzularının nəticəsiz qalacağı şübhəsizdir. Yəni Müsavat kimi AXCP-nin də dağılması qaçılmazdır.

***İ.ƏLİYEV***

# Övladlığa götürmə ilə himayədar ailənin fərqi nələrdir?

Azərbaycanda tərk edilmiş uşaqların sayı, təəssüflər olsun ki, çoxdur. Bununla yanaşı, ölkədə övladlığagötürmə ilə "Himayədar ailə" modeli tətbiq olunur. Bəs, bunlar arasındakı fərq nədir?

Vəkil Turan Abdullazadə






SİA-ya açıqlamasında bildirib ki, qanunvericiliyə əsasən, himayədar ailə və övladlığa götürənlər tamam fərqli anlayışdır: "Uşaqların himayədar ailəyə verilməsi və övladlığa götürmə proseduru da tamamilə bir-birindən fərqlənir. Belə ki, Ailə Məcəlləsinə əsasən, himayədar ailə uşağın tərbiyə olunmaq üçün verilməsinə dair müqavilə əsasında yaranır. Bu müqavilə qəyyumluq və himayə orqanı ilə himayədar valideynlər (uşağı tərbiyə olunmaq üçün ailəyə götürmək arzusunda olan ər-arvad və ya ayrı-ayrı vətəndaşlar) arasında bağlanır. Himayədar ailəyə tərbiyə üçün yalnız yetkinlik yaşına çatmamış uşaq və yalnız müqavilə ilə nəzərdə tutulmuş müddətə verilə bilər. Himayədar ailə haqqında əsasnamə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunur. Valideyn himayəsindən məhrum olmuş, o cümlədən sosial xidmət müəssisələrində olan uşaqlar tərbiyə edilmək üçün himayədar ailələrə verilə bilərlər. Qanunvericilikdə müəyyən edilmiş qaydada himayədar ailəyə verilən uşağın hər birinə hər ay maddi müavinət verilir. Himayədar ailəyə verilən uşaqların normal saxlanmasına, tərbiyə və təhsilinə nəzarət etmək müvafiq icra hakimiyyəti orqanının borcudur. Valideyn himayəsindən məhrum olan uşaqlar ailə tərbiyəsinə (himayədar ailəyə) bu imkanlar olmadıqda isə valideyn himayəsindən məhrum olan uşaqlar üçün sosial xidmət müəssisələrinə verilirlər. Himayədar ailənin öhdəsində olan uşaqların övladlığa götürülməsi üçün onların himayədar valideynlərinin həmin uşaqlarla bağlı fikri öyrənilir.

Bəşər tarixində uşağın ailədə tərbiyəsindən daha üstün forma müəyyən olunmamışdır. Övladlığa götürmə uşağın ailədə yaşamaq və tərbiyə olunmaq hüququnun təmininə xidmət edir.

Qanunvericiliyin tələbinə görə övladlığa götürmə isə üç mərhələdə həyata keçirilir: 1) övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uçota alınması; 2) övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğunun müəyyən edilməsi; 3) övladlığa götürmə barədə məhkəmə qərarının qəbul edilməsi.

Övladlığa götürülmə üçün mütləq qaydada məhkəmə qərarın qəbul edilməsi vacibdirsə, uşağın himayədar ailənin tərbiyəsinə verilməsi üçün belə bir tələb yoxdur".

***Arzu Qurbanlı***



# Artakın "artsaxı tanıtmaq" ümidi...

## *...Dağıl, ay dünya!*

***Ermənilərdə biri var ey,.. gərək ki, "dövlət naziri"(?) olmalıdır, Artak Beqlaryan,.. ötən gün o, çəlimsiz vücuduna xas olmayan bir şəkildə ermənilərə müraciət edərək,.. guya azərbaycanlıların Xocalıya və ümumiyyətlə, "artsax hakimiyyəti"nin nəzarəti altında olan digər ərazilərə qayıtması ilə bağlı şayiələrin reallıqla heç bir əlaqəsi olmadığını deyib. Artakın sözlərinə görə, guya "artsax hakimiyyəti"nin gündəliyində belə bir məsələ yoxdur.(?)***

Çuna görə də, Artak ermənilər üçün çətin bir gündə bu çür "təxribatçı dedi-qodulara" inanmamağa çağırıb.

Qeyd edək ki, Artakın çəlimsizin biri olmasına baxmayın aaa, çəlimsiz olsa da "artsax hakimiyyəti"ndə baş qaldıran "bütün mühüm məsələlər" onsuz həllini tapmır. Deyim ki, bir müddət bundan əvvəl, hələ vaxt tapıb dilənmək, yox, üzr istəyirəm, Amerikadakı ermənilərdən dollar...istəmək üçün ABŞ-da getmişdi. Deyəsən, həmən səfər Artak üçün elə də uğurlu olmamışdı. Yəni okeanın o tayında "dövlət naziri"nin nə "vəzifəsinə", nə də şikəst canıyla gedib ora çıxmasına oradakı ermənilərin heç biri əhəmiyyət verməmişdilər və pulsuz-parasız geri göndərmişdilər. O da özünü o yerə qoymayıb yenidən "sevdiyi dövlət naziri" işinə dönmüşdü.

Amma "dövlət"in problemləri bitib qurtarır, bəyəm. Budur Artakın təyinatına şəxsən özü zəmanət verdiyi "ombudsman" Qeqam Stepanyan yenə də bəd xəbərlə gəlib. Belə ki, o, "dövlət naziri"nə verdiyi "hesabatında" "Azərbaycanda guya erməni əsilli insanlara qarşı ayrı-seçkilik siyasətinin həyata keçirildiyi barədə" dünyanın bütün səlahiyyətli instansiyalarına göndərdiyi hesabatların heç bir effekt vermədiyini Artaka "məruzə edir".

Deyim ki, "məruzəni bitirən" Stepanyan dünyanın məzlum ermənilərə niyə hələ də inanmadığına təəccübünü gizlətmir. Amma deyim ki, Qeqamdan fərqli olaraq, Artak bunları yaxşı bilir və bilsə də, lakin özünü o yerə qoymur.

İndi Artak Qeqam Stepanyandan onu "işə götürərkən" "artsax"ı beynəlxalq səviyyədə tanıdacağına "öz töhfəsini" verəcəyi barədə dediklərini xatırladıb, indi bu məsələnin nə yerdə olduğunu soruşduqda, "ombudsman" özündən əvvəlki həmkaları kimi bu məsələdə artıq "gecikdiklərini" bildirir.

Amma deyim ki, əslində Artak bu məsələnin nə vaxtsa reallaşacağına heç özü də inanmır, lakin hələ də ətrafındakılara özünü ümidli göstərməyə çalışır?

***Ağasəf Babayev***

***İki il öncəyədək sadəcə təqvimin 12 ayından biri idi sentyabr. Tarixi və əlamətdar günləri olan digər aylardandı. Bu ay payızı gətirir ömrümüzə. Onu əsasən bu xüsusiyyəti ilə tanıyırdıq. İsti yayın arxasından həzin küləkləri ilə bir sərinlik gətirir, yaya "əlvida" deyib payızı qarşılayırdıq sentyabrda. İllərdir ki, sentyabr beləcə gəlib keçir, gedir, illərin üstünə gələn illərdə rolu yalnız bundan ibarət olurdu. İki il öncə isə sentyabr dəyişdi, başqalaşdı, bizim üçün xüsusi bir aya çevrildi. Payızı ömrümüzə təzəcə gətirmişdi ki, təqviminin 27-ci günündə İkinci Vətən müharibəsi başlandı.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Sevincimiz, kədərimiz, qürurumuz SENTYABR





## Sentyabr: Böyük Zəfərə aparan yolun başlanğıcı

Həmin gün, sözün həqiqi mənasında, sevinclə kədəri bərabər yaşadıq. Öncə kədərləndik. Çünki kim müharibə istəyər ki? Bizim xalq Birinci Vətən Müharibəsini gördüyü, onun ağrı-acısını yaşadığı üçün yeni bir müharibəni əsla istəmirdi. Lakin 30 il idi ki, torpaqlarımız erməni işğalı altında idi. 30 ildə bu torpaqların geri qaytarılması, həm də sülh yolu ilə qaytarılması üçün bütün yollar axtarılmışdı. Dövlətinizin başçısı danışıqlar aparmış, dünyanın ən yüksək tribunalarından bu problemin həllinə çağırış etmişdi. Beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırmışdı. Qarabağın Azərbaycan torpağı olduğunu sübut etmişdi. Bunun üçün qətnamələrin qəbul edilməsinə nail olmuşdu. Lakin bu qətnamələr kağız üzərində qalmaqda idi. Maraqlı dairələr bu həqiqətin həyata keçirilməsinə yol vermirdi. Beləliklə torpaqlarımızın azad olunması ilə bağlı müsbət nəticə əldə olunmurdu. Bu düyünü çözməyə cavabdeh olanların hamısı susurdu. Hamısı ermənilərin tərəfini tuturdu. Haqq səsimizi dinləmirdilər, ədalətin biz tərəfdə olduğunu görmək istəmirdilər.

Belə olan təqdirdə ölkəmizdə hər an yeni bir müharibənin başlanması gözlənirdi. Bunu dəfələrlə dövlətimizin başçısı da vurğulamışdı ki, torpaqlarımızı dinc yolla geri ala bilməsək, hərb yolu ilə alacağıq. Çünki o torpaqlar bizimi əzəli torpaqlarımız, soydaşlarımızın dədə-baba yurdu idi.

Bəli, dünya haqq səsimizin cavabında susduqca yeni bir müharibənin başlanması da zərurətə çevrilirdi. Və həmin tarix 2020-ci ilin 27 sentyabrına təsadüf etdi. İllərdir, sentyabr ayının gəlişinə heç bir reaksiya vermirdik. Çünki o, sıradan bir ay idi. gəlirdi, xoş gəlirdi... Lakin ikinci sentyabrdır ki, avqustu yola salıb ömrümüzə girdiyi andan sanki birbaşa xatirələrimizə qədəmini qoyur, onu oyadır, "mən gəlmişəm" deməklə müharibəli günlərimizi yenidən gətirir ömrümüzə.

Sentyabr... Düşünərdikmi ki, Zəfərə gedən yol başa çatmaqda olan bu ayın cəmi 3-cə günündən başlayacaq? Düşünərdikmi ki, həyatımıza gələn növbəti payızın birinci həftəsindən torpaqlarımızın azadlığına gedən yol başlayacaq? Düşünərdikmi ki, bu payız tamamilə başqa bir payız olub ömrümüzə payızda bahar gətirəcək?..

## Sentyabr bizi nisgilimizi silməyə göndərdi

Sentyabr bizi illərdən bəri üst-üstə yığılan torpaq nisgilimizi silməyə göndərdi. Sentyabr bizi hicranı qovub, vüsalı Qarabağ ellərinə qonaq çağırmağa göndərdi. Sentyabr bizi şərəfimiz, namusumuz olan torpaqları düşmən əlindən almağa göndərdi. Sentyabr minlərlə oğlumuzu Vətən yolunda canından keçməyə, lakin namusumuzu hifz etməyə göndərdi...

Sentyabr... Ayların tacı oldu bizim üçün. Çünki həmin ay biz həmrəy olub dövlətimizin başçısı ətrafında toplaşmışdıq, bütün xalq ayağa qalxıb cəbhəyə yollanmağa Ali Baş Komandandan əmr gözləyirdi. Milli Ordumuz cəbhədə bizə torpaqlarımızı geri qaytarmaq üçün zamanın çatdığını diktə edən böyük sərkərdənin əmri ilə əməliyyatlar həyata keçirirdi.

Həmin günü-27 sentyabrı bugünkü kimi xatırlayıram. Havadan müharibə qoxusu gəlirdi. Həmin gün camaat arasında bəzi xəbərlər dolaşırdı ki, Qarabağda vəziyyət gərgindir. Televiziya kanallarının hər biri də sanki müharibəyə köklənmişdi. Səhər saatlarında bütün televiziya kanalları ölkə Prezidentinin xalqa müraciət edəcəyini anons edirdi. Səbirsizliklə dövlətimizin başçısının müraciətini gözləyirdik. Nəhayət ki, müraciət yayımlandı.

Dövlətimizin başçısı: "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi



mövqelərimizi atəşə tutmuşdur.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür".

Bu ilk cümlələr məsələnin nə yerdə olduğunu və müharibənin başladığını bəlli edirdi. Dövlətimizin başçısının ermənilərin son aylarda törətdikləri təxribatları sadalaması və yeni torpaqlar işğal etmək niyyətində olduqlarını bildirməsi isə artıq bu müharibənin qarşısının alınmaz olduğunu təsdiqləyirdi: Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları müntəzəm xarakter almışdır. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də artilleriya atəşi nəticəsində hərbçilərimiz və bir mülki şəxs həlak olmuşdur. Heç kəsə sirr deyil ki, ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açıbdır və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olmuşdur. Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi. Düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı. Mən bu barədə demişəm, bir daha demək istəyirəm, əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdır.

Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü? İlk növbədə, Azərbaycan torpaqlarının işğalı onların planındadır və onlar bunu gizlətmirlər. Onların hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı, yeni ərazilər uğrunda yeni işğal siyasəti. Budur, bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti. Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıbdır. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir.

BAXIŞ BUCAĞI

Ardı Səh. 15

# Sevincimiz, kədərimiz, qürurumuz SENTYABR



Əvvəli-Səh-14

İyul ayında Azərbaycan düşmənə layiqli cavabını verdi, öz ərazi bütövlüyünü qorudu və bir daha göstərdi ki, Azərbaycanla hədə-qorxu dili ilə danışan bundan peşman olacaqdır. Əfsuslar ki, bu, onlar üçün dərs olmadı. Halbuki mən iyul təxribatından sonra demişdim ki, Ermənistanın bu acı məğlubiyyəti onlar üçün dərs olmalıdır.

Avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azərbaycana diversiya qrupu göndərilmişdir. Diversiya qrupunun başçısı Azərbaycan hərbçiləri tərəfindən saxlanılmışdır və hazırda ifadələr verir. Bu ifadələrdə açıq-aydın göstərilir ki, bu planlaşdırılmış təxribatçı diversiya qrupu Azərbaycana terror aktları törətmək üçün gəlmişdir. Mülki əhaliyə və hərbçilərimizə qarşı növbəti hərbi təxribat bu gün Ermənistan tərəfindən törədildi və qeyd etdiyim kimi, bu dəfə də onlar öz cəzasını alıblar və alacaqlar.

Beləliklə, sentyabr bizi 30 il əvvəldən başlanan, artıq qəlblərimizdə düyünə çevrilən, daşlaşan nisgilimizi silməyə göndərdi. Sentyabr müharibəni başlatdı. Tamamlanmasına 3 gün qalmış yeni bir müharibəyə start verib, əsgərimizi payızın sazaqlı-soyuqlu günlərində torpağını azad etməyə göndərdi.

## Sentyabr həm sevindirdi, həm də kədərləndirdi

Sevindirdi, ona görə ki, 30 illik arzumuz hasil oldu. Baxmayaraq ki, biz müharibə istəmirdik. Şəhid dağı, bala itkisi, qazi yarası, itkin dərdi istəmirdik. Çünki bunların hamısını Birinci Vətən Müharibəsində yetərincə yaşamışdıq. Minlərlə şəhid, qazi, itkinimiz olmuşdu. Analarımız qara yaylıq qalmışdı. Atalarımızın qəddi bükülmüşdü. Bütün bu itkilərlə yanaşı, həm də torpaqlarımız işğal olunmuşdu. Ozamankı dövlət rəhbərliyinin ordumuzun cəbhədə kömək gözləyən əsgərinə heç bir köməkliyi olmamışdı. Bu səbəbdən də torpaqlarımızı itirməli olmuşduq. Əks təqdirdə bu xalqın hünərinə də, qeyrətinə də, döyüş qabiliyyətinə də hamı şahiddir.

Torpaqlarımız satılmışdı, insanlarımız isə boş yerə qan axıdırdı cəbhədə. Görün belə bir vəhşilik, qəddarlıq görünübmü dünyada? Sən xalqın torpağını sat-sov, otur sakitcə kreslonda, millətinin onlarla nümayəndəsinin də hər gün evlərinə cənazə gətirilsin. Həqiqətən Birinci Vətən Müharibəsində bu xalqın başına gələnlər tarixdə görünməyən hadisələr silsiləsindəndir. Sonda da bu qədər itki qarşılığında torpaqların da əlindən getsin, qalsın yağı tapdağı altında. Yağı da bu torpaqlarda yaşayan günahsız insanları gecənin qaranlığında, soyuğunda silah gücünə evindən çıxarıb salsın çöllərə. Onlar da köçkün, qaçqın, didərgin adı ilə yaşamalı olsunlar. 30 il yurd həsrəti, nisgili ilə yanıb alovlansınlar. Harada idin, ey ilahi ədalət. Belə vəhşilikmi olardı?

Bəli, bütün bu səbəblərdən müharibənin başlanmasına kədərləndik. Axı müharibə acılar, çətinliklər, göz yaşı, unudulmaz yaralar və xatirələr bəxş edir insanlara. Belə isə kim müharibə istəyər. Biz bilirdik ki, yenə də övladlarımız şəhid olacaq, sağ-salamat göndərdiklərimiz evimizə sağlamlığını müharibədə qoyub qayıdacaq. Bilirdik ki, balalarımız itkin düşəcək. Ömrümüzün sonunadək gözlərimizi yollarda qoyacaq, hər qapı döyüldüyündə gəldiyini zənn edəcəyik. Lakin onu da bilirdik ki, nə ölkəmiz 30 il əvvəlki ölkədir, nə də ordumuz. Bilirdik ki, bu dəfə qələbə haqqın, ədalətin yanında olacaqdır.

Elə buna görə də sevinirdik. Sevinirdik ki, torpaqlarımız geri qaytarılacaq. Axı nə qədər tənə qəbul etməli idik? Niyə bizə torpaqlarınız ermənninin əlindədir, deməli idilər? Bunun bir sonu olmalı idi axı. Sevinirdik ki, biz namus məsələsi olan torpaqlarımız uğrunda mübarizəyə qalxmışıq. Sevinirdik ki, Qarabağımız, Şuşamız, Laçınımız, Kəlbəcərimiz, Zəngilanımız, Ağdamımız və sair rayonlarımız həbsdən azad olunacaq, anası Azərbaycanın qoynuna qayıdacaq. Köçkün, qaçqın, didərgin adı üstümüzdən götürüləcək. Sevinirdik ki, biz yenidən Qarabağa gedəcəyik. Əzizlərimizin məzarını görəcəyik. Ən əsası isə sevinirdik ki, biz əyilib o torpaqları öpəcəyik.

## Sentyabr qürurumuz oldu

Baxmayaraq ki, müharibə sentyabrın 3 gününü, bütöv oktyabrı və noyabrın 10 gününü əhatə etdi, lakin Zəfərə gedən yol sentyabrdan başladığı üçün bu ay bizim qürurumuz oldu. Artıq ermənilərin həddini aşan hərəkətlərinə dözmək o qədər mümkünsüz olmuşdu ki, bu, müharibənin başlaması üçün real şərait yaratmışdı. Ölkə başçısının müharibə başlayan gün xalqa müraciətindən: Ermənistanın təxribatları, eyni zamanda, Ermənistan rəhbərliyi tərəfindən verilən bəyanatlarda da öz əksini tapır. Ermənistanın baş naziri bir il bundan əvvəl işğal edilmiş torpaqlarda - Xankəndidə demişdir ki, "Qarabağ Ermənistandır və nöqtə". Birincisi bu, yalandır, Qarabağ Azərbaycandır və mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm. Qarabağ Azərbaycandır və nida işarəsi. İkincisi, bu təxribat xarakterli bəyanat faktiki olaraq danışıqlar prosesinə vurulan böyük zərbə idi. Əgər Ermənistanın baş naziri deyirsə ki, "Qarabağ Ermənistandır", onda hansı danışıqlardan söhbət gedə bilər?! Bununla paralel olaraq, Ermənistanın rəhbərliyi artıq iki il ərzində dəfələrlə bəyan edir ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Bu da danışıqlar prosesinə vurulan böyük zərbədir. İlk növbədə, Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq. İkincisi, danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbul edilməzdir və bu, o deməkdir ki, işğala son qoyulmalıdır.

Və müraciətdə eyni zamanda Ermənistanın murdar təxribatları da sadalanır, bunun qarşısının alması vaxtı çatdığı söylənilirdi: Ermənistanın bizə qarşı təxribatları bu faktlarla bitmir. Bu yaxınlarda bizim qədim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının "andiçmə" mərasimi keçirilmişdir. Bu, təxribat deyilmi? Bu, bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər.

Bu yaxınlarda qondarma "Dağlıq Qarabağ respublikası" parlamentinin qədim Azərbaycan şəhəri - Şuşaya köçürülməsi haqqında qərar qəbul edildi. Bu, növbəti təxribatdır. Bu yaxınlarda Ermənistanın baş naziri bəyan etmişdir ki, on minlərlə insanı birləşdirən "könüllü" hərbi birləşmələr yaradılacaqdır. Bu, nə üçün lazımdır? Bunlar kimə qarşı vuruşacaqlar? Bu, Azərbaycana qarşı bu gün törədilən təxribatın hazırlıq mərhələsi idi. Mən artıq bir neçə dəfə demişdim, o cümlədən bu yaxınlarda BMT kürsüsündən demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır və dayandırılacaqdır.

Bəli, Ermənistan bizə qarşı müharibəyə hazırlaşdığı təqdirdə ona qarşı müharibəni yəqin ki, gözləmirdi. Çünki onların fikri, düşüncəsi hələ də 30 il əvvəldə qalmışdı. Bizdə isə nə 30 il əvvəlki dövlət, xalq, nə də ordu vardı. Bunların hamısı tarixin o üzündə qalmışdı.

Sentyabr bizim qürurum oldu və illər sonra da biz sentyabrı belə xatırlayacaq, onu ayların tacı hesab edəcəyik. Çünki sentyabrdan başlanan yol bizi qürurlandırdı, həmrəyliyimiz, "Dəmir yumuruq" ətrafında sız birləşməyimiz bizi dünya ilə bir etdi. Hamı bizdən danışdı...

## Sentyabr payızını Qarabağda bahara çevirdi

Sanki təbiət də bu müharibəni gözləyirdi. Bu yerin sahiblərinin qayıtmasını, 30 il günəş doğmayan torpaqlara nur gətirməsini gözləyirdi. 30 il küsmüş təbiət onsuz da payız ömrünü yaşayırdı. Bütün torpaqlarımız bozdan don geyinmiş, yağı tapdağı altında əzildiyindən küsmüş, gülünü-çiçəyini içinə gömüb doğmasının yolunu gözləyirdi. Bu yerlərə yaşıl, al-əlvan rəngləri bir də onun əzizləri gətirə bilərdi.

27 sentyabrdan başlanan yolla Qarabağa irəliləyən ordumuz bu torpaqların 30 ildə gözlədiklərini verdi onlara. Torpaq doğma övladlarının nəfəsini çəkdi ciyərlərinə, şəhidinin qanından içdikcə illərin susuzluğundan xilas oldu. Axı torpaq övladını özü üçün dünyaya gətirir. Zamanında onu qoruması, müdafiə etməsi üçün. Bu səbəbdən də ona doğmasının qanı yadın suyundan əzizdir.

44 günlük payız Qarabağa bahar gətirdi. Sanki hər yer yaşıllaşdı, al-əlvan güllər açdı. Axı Qarabağa doğması gəlmişdi. Onu xilas etməyə, yadların əlindən almağa gəlmişdi. Bütün təbiət pişvazına çıxmışdı əsgərimin. Günəş də payızın qaş-qabağını yarıb üfüqdən boylanırdı. Öz hərarəti ilə əsgərimi isidirdi ki, mübarizəsini davam etdirə bilsin. Payız xəzəlini yastıq edib əsgərimin başının altına qoyurdu ki, bir anlıq yuxusu ilə güclənib yağının başına od töksün. Torpaq canlanıb övladını bağrına basırdı, onu sinəsində düşməndən gizlədirdi, müdafiə edirdi ki, əsgərim də onu azad edə bilsin.

Beləliklə, sentyabr payızını Qarabağa bahar kimi yolladı. 2020-nin 44 günlük payızı bahara çevirdi Qarabağda. Zəfər səsi duyulduqca, Zəfər rəngli bayrağımız torpaqlarımız üzərində dalğalandıqca Qarabağa allı-güllü bahar gəldi. Elə bir bahar ki, soyundurdu torpaqlarımızın boz libasını. Allı-güllü libasını geyindirdi yurdlarımıza. Bu, elə bir bahardır ki, yüz illər bundan sonra da yurd yerlərimizin daim al-əlvan, çiçəkli-güllü, günəşli olmasının yeni bir təməlini qoydu.

Bu gün torpaqlarımızda gedən böyük quruculuq işləri, yurddaşlarımızın Kəlbəcərə qayıdışı, qarşıda hələ neçə-neçə qayıdışlar o bahardan stimul alıb. Hələ qarşıda bu qədim torpaqlarımızda daha hansı yeniliklər olacaq, onu zaman göstərəcəkdir. Çünki Qarabağ əbədiyyən Azərbaycandır!

*Mətanət MƏMMƏDOVA*

# İnsanları intihara və qətl törətməyə NƏ VADAR EDİR?



**Şiddətli depressiyadan əziyyət çəkən insanlar üçün ümidsizlik təhlükəli bir simptomdur. "Mənsiz həyat ətrafımdakı insanlara daha faydalı olardı" düşüncəsi ilə insan həyatına son qoya bilər. Son zamanlar qətl və intihar hadisələrinin sayı şiddətlə artmaqda davam edir. Bəs, bunların səbəbi nədir? Qətl və intiharların qarşısı necə alınmalıdır? SİA mövzu ilə bağlı sosioloq və psixoloqun fikirlərini öyrənib.**



**Fəlsəfə üzrə fəlsəfə doktoru, sosioloq Mail Yaqub:** "İntihar və qətl fərqli məfhumlardır. Təbii ki, hər ikisi cinayətdir, lakin müxtəlif mahiyyətləri var. İntihar modern dövrün ciddi bəlalarından biridir. Təəssüf ki, yüksək rifaha sahib bəzi ölkələrdə də intihar hallarının sayı çoxdur. Bu, onu göstərir ki, intihara səbəb olan amillər təkcə maddi problemlərlə əlaqəli deyil. Burada psixoloji faktor çox ciddi rol oynayır.

Bəzən insanın maddi rifahı yaxşıdır, amma sıxılır, darıxır. Hətta deyərdim, zahirən maddi problemdən doğan intiharların kökündə də psixoloji səbəb dayanır. Güclü mənəvi-psixoloji stabilliyi olan şəxs nə qədər maddi çətinliyi olsa da, intihara əl atmaz.

İntiharın əsas səbəblərindən biri insanın özünü tənha-köməksiz hiss etməsidir. Nə etməli? Bacardığımız qədər ünsiyyətlərimizi çoxaltmalıyıq. Ünsiyyət dərmandır. Bir-birimizə maddi dəstək ola bilməsək də, mənəvi dəstək olaq. Bizim bir-birimizi dinləməyə ehtiyacımız var. Fransız sosioloqu Emil Dürkheym intihar haqda araşdırmasında deyir ki, "İntihar protestantlar arasında daha çox yayılıb. Ona görə ki, protestantizmdə insanın qiyamət günü Tanrı qarşısında tənha qalıb, dəqiq hesabat verəcəyinə çox təkid edilir. Bu tənhalıq hissinin aşılanması insanı darıxdırır və o inthara əl atır".



**Psixoloq Fidan Nizamova:** "İntihar öncədən düşünülmüş bir addımdır, qətl hadisələri də çox vaxt hansısa maddə səbəbindən baş verir. İstisna hallar təbii ki var. İntihar edən insanı yaşamaq çətin və mənasız gəlir. Ölkəmizi götürsək, intiharlar daha çox namus-qeyrət, yaxud da valideyn-övlad səbəbindən irəli gəlir. Belə ki, əslində bu səbəblər ciddi olmur. İnsanlara elə gəlir ki, adi bir şeylər üstündə onları qınayıb bağışlamayacaqlar. Bu onun cəmiyyət və ailəsi ilə mübarizəsidir. Bu səbəbdən də bir adama irad bildirərkən düşünmək lazımdır. Burada bizim də üzərimizə böyük məsuliyyət düşür.

Çox səbəblər göstərilir. Məsələn, maddi durumun aşağı olması, sevgilidən ayrılma və s. İnsana öncə ailə və cəmiyyət dəstək olmalıdır. Dediyimiz hər bir sözdə, etdiyimiz zarafatda çox diqqətli olmalıyıq. Çünki hər kəs çox həssasdır. Bu həssaslıq Vətən müharibəsi və pandemiyadan sonra daha da artıb.

Qətldə isə fərqli məqamlar var. Bu insanın özünün qəbul edilməməsi ilə bağlıdır. Məsələn, kişilərdə sevdiyi qadın, yaxud həyat yoldaşı ondan ayrılarsa, o belə hallara əl atır. Bu düşüncələr insanları yanlış addım atmağa vadar edir. Bu haqda düşünmək lazımdır.

Qətllər maddi məsələ üzərində də ola bilər. Gənclər bir anlıq heç nəyi düşünmədən belə addım ata bilirlər. Başqa çıxış yolları tapılmalıdır. Gənclərə səslənirəm ki, həll olunmayacaq problem yoxdur. Peşəkarlar və hər zaman dəstək olmağa hazır olan insanlar var".

*Ayşən Vəli*

# Mişi Batşuayi "Fənərbaxça"da



***"Fənərbaxça" heyətinə daha bir futbolçu cəlb edib. İstanbul klubunun yaydığı məlumatda deyilir ki, "Çelsi"nin hücumçusu Mişi Batşuayi heyətə cəlb edilib. Belçika millisinin üzvü tibbi müayinədən keçmək üçün İstanbula yollanıb.***

Qeyd edək ki, 2016-cı ildə "Marsel"dən "Çelsi"yə keçən Batşuayi Dortmund "Borussiya"sı, "Valensiya", "Kristal Palas" və "Beşiktaş"da icarə əsasında çıxış edib.

# Uşaqlar arasında yayılan virusun artmasına SƏBƏB NƏDİR?

***"Uşaqlar arasında geniş yayılan bu virus həm də böyüklər arasında da yayılıb. Uşaqlar arasında yayılan virus mövsümi xarakter daşıyır". Bu fikirləri pediatr Sevda Novruzova bildirib.***



Onun sözlərinə görə, ailə üzvlərindən bir nəfərdə müşahidə olunduğu zaman digər ailə fərdlərinə də yoluxur: "Xəstəlik ümumi olaraq halsızlıq, ürəkbulanma, qusma və diareya ilə başlayır. Yay fəsli, havaların qeyri-sabit keçməsi, isti və sərin havaların bir-birini əvəz etməsi insan orqanizminə mənfi təsir edir. Tərləmə, soyuq su içmə kimi hallar virus infeksiyalarının yayılmasına kömək edən faktorlardan biridir. Bu da yay fəsli ilə əlaqədar rast gəlinən virus infeksiyalarından biridir. Demək olar ki, hər il yay fəslində bu virusa rast gəlinir. Amma bu il virus ailə üzvləri arasında geniş yayılıb. Qarşısını almaq üçün soyuducudan soyuq su içmək, qaynadılmamış su içmək, gün ərzində bir neçə dəfə soyuq və isti hava vannaları kimi hallardan uzaq durmaq lazımdır".

*Abutel İlhamqızı*

# Bu gün temperatur 40 dərəcəyədək artacaq

Bakıda və Abşeron yarımadasında sentyabrın 3-də hava yağmursuz keçəcək. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25° isti, gündüz 33-38° isti, Bakıda gecə 23-25° isti, gündüz 35-37° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 60-65 %, gündüz 30-35 % olacaq.

Azərbaycanın rayonlarında bu gün əsasən yağmursuz olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25° isti, gündüz 35-40° isti, dağlarda gecə 12-17° isti, gündüz 24-29° isti olacaq.



Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600